# Həyat bilgisi

# 5

DƏRSLİK







# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

NÜŞABƏ MƏMMƏDOVA
KÖNÜL MAHMUDOVA
AYNUR BAĞMANLI

# Həyat bilgisi 5

*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*
DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2017

**MÜNDƏRİCAT**

## *Cəmiyyət – bu bizik*


**Mövzu 1.** Hər şey ünsiyyətdən başlayır..............................8

**Mövzu 2.** Ailə kiçik cəmiyyətdir........................................10

**Mövzu 3.** Mən də bir qrupdayam........................................13

**Mövzu 4.** Xalqlar........................................................16

**Mövzu 5.** Dövlət və dövlətçilik..........................................18

**Mövzu 6.** Dövlətim mənə xidmət edir...................................21

**Mövzu 7.** Hüquqlarımız qorunur..........................................23

**Mövzu 8.** Bizim tələbatlarımız............................................26


## *Ətraf mühit və sağlamlıq*


**Mövzu 1.** Sağlam həyat tərzi............................................30

**Mövzu 2.** Təhlükəsiz kompüter...........................................33

**Mövzu 3.** Sağlamlığımız təhlükədədir...................................35

**Mövzu 4.** Yol nişanları nə üçündür?....................................38

**Mövzu 5.** Yol hərəkəti qaydalarına əməl edək........................42

## *Təbiəti gəzək və tanıyaq*

**Mövzu 1.** Təbiətdəki cisim və maddələr................................46

**Mövzu 2.** Mühit amilləri və təbiət hadisələri.........................49

**Mövzu 3.** Təbiət qəzəblənib..............................................53

**Mövzu 4.** Günəş sistemində baş verən hadisələrin sirri..........56

**Mövzu 5.** Ekoloji mühitin canlılara təsiri..............................59

**Mövzu 6.** İnsan və təbiət...................................................61

**Mövzu 7.** Təbiətin harayı...................................................64

**Mövzu 8.** Təbiətə borcumuz..............................................67

## *Dinimiz və mənəviyyatımız*

**Mövzu 1.** İnsanın gözəlliyi onun əxlaq və davranışındadır........70

**Mövzu 2.** Dini dözümlülük.................................................73

**Mövzu 3.** Səmavi və qeyri-səmavi dinlər..............................75

**Mövzu 4.** İnanc sistemində oxşarlıq və fərqlər.......................77

**İstifadə edilmiş ədəbiyyat**...............................................79

## ƏZİZ ŞAGİRDLƏR!

Bu kitab sizə gündəlik həyatınızda rastlaşdığınız bir çox problemləri həll etməyə və onların həlli zamanı araşdırma, planlaşdırma, müzakirə, həyatda tətbiqetmə bacarıqları aşılamağa kömək edəcəkdir.

Kitabda istifadə olunan simvolik işarələr sizin kitabla işləməyinizi asanlaşdıracaq.



Motivasiya



Tapşırıqlar

Maraqlı faktlar, müdriklərin kəlamları göstərilmişdir.

# CƏMİYYƏT –
# BU BİZİK



# 1 Hər şey ünsiyyətdən başlayır

*Artıq siz ibtidai təhsil səviyyəsini başa vurmusunuz. Təhsilinizi 5-ci sinifdə davam etdirirsiniz. Müəllimlərinizin, dərs keçəcəyiniz sinif otaqlarının sayı artıb. Ömrünüzün ən şirin çağlarının bir qismini bu müəllimlərlə, sinif yoldaşlarınızla birgə doğma məktəbinizdə keçirəcəksiniz. Sizi düşündürən, narahat edən suallara burada cavab tapacaqsınız. Müxtəlif insanlarla tanış olacaq, onlarla ünsiyyət quracaqsınız. Görəsən, ünsiyyət nə üçün vacibdir?*

*Şəkilləri sinif yoldaşlarınızla müzakirə edin.*





***Ünsiyyət*** — insanlar arasında qarşılıqlı münasibət, onların bir-birini qavraması və anlaması prosesidir. Sizcə, ünsiyyətsiz yaşamaq mümkündürmü? Nə üçün? Bir-biri ilə ünsiyyət saxlamayan toplum təsəvvür etmək mümkün deyil. Çünki cəmiyyətdə yaşayıb heç kimlə ünsiyyət saxlamamaq qeyri-mümkündür.

Lakin ünsiyyət heç də asan proses deyil. Cəmiyyətdə elə insanlar var ki, onlar ətrafdakılarla çətin ünsiyyət qururlar. İnsanların uğurlu ünsiyyət yaratmasına bir sıra amillər: salamlaşmaq, gülərüz olmaq, hal-əhval tutmaq, qonaq getmək, qonaq qəbul etmək, xoşrəftar, dürüst, səxavətli olmaq və s. kömək edir. Bütün bu sadalananlar *ünsiyyət mədəniyyətinin* formalaşması üçün böyük əhəmiyyət kəsb edir.

İnsan ünsiyyətinin əsasını nitq təşkil edir. Nitq qabiliyyəti yalnız insana məxsusdur. O, insanın əxlaqını, elmini, dünyagörüşünü, mədəni səviyyəsini əks etdirən güzgüdür. Siz də həmsöhbət olduğunuz insanı diqqətlə dinləyin, sözünü kəsməyin. Yüksəkdən danışmayın ki, həmsöhbətiniz sizin onunla səmimi olduğunuzu duysun.

Aralarındakı münasibətlərdən asılı olmayaraq insanların bir-birinə salam verməleri ünsiyyətin əsas əlamətlərindən biridir. Salamlaşma insanlar arasında münasibətləri yaxşılaşdırır, onlar arasında məhəbbət, dostluq, qardaşlıq tellərini möhkəmləndirir.



Son vaxtlar belə fikirlər səslənir ki, tezliklə İnternet insanlar-arası ünsiyyəti əvəz edəcəkdir. Bilirsiniz ki, kompüter insanlara təhsil almağa, səmərəli işləməyə imkan yaradır. Çünki insanlar onlara lazım olan məlumatı İnternet vasitəsilə əldə edir, öyrənir, hətta dost da seçirlər. Lakin kompüterdən çox istifadə ondan asılılıq yarada bilər. Bu isə insanın canlı ünsiyyətini azaldır. Heç nə insanla canlı ünsiyyəti əvəz etməz və münasibətlərdən alınan təəssüratı verə bilməz. Unutmayın ki, ünsiyyət insanın mənəvi tələbatıdır.



**1.** Şəkillərə əsasən ünsiyyət vasitələrini müəyyən edin.







**2.** Nümunəvi ünsiyyət qaydaları haqqında esse yazın.
**3.** Bəzi insanların düzgün ünsiyyət qura bilməməsinin səbəblərini araşdırın. Belə insanlara bunun aradan qaldırılması üçün hansı tövsiyələri verərdiniz?

# 2 Ailə kiçik cəmiyyətdir

## Cəmiyyət — bu bizik

*Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir.*
**Ulu öndər Heydər Əliyev**

*İnsan daim müxtəlif hərəkətlər edir. O yeyir, içir, danışır, oxuyur, düşünür, kiminləsə dostluq edir. Bəzən kiminsə köməyinə ehtiyac duyur, yaxud kiməsə əl tutmalı, yardım etməli olur. İnsan bir ailəyə, xalqa, dövlətə mənsub olur və valideynləri, qohum-əqrəbaları, qonşuları, dostları, həmvətənləri tərəfindən əhatə olunur.*

*Belə insan birlikləri necə adlanır?*



Bütün bu insanlar birlikdə *cəmiyyəti* təşkil edir. Bəzən bir-biri ilə ünsiyyətdə olan insanlardan ibarət kiçik qrupu da “cəmiyyət” adlandırırlar.

İnsanı digər canlılardan fərqləndirən onun şüurlu varlıq olmasıdır. İnsanın şüuru da məhz digər insanların əhatəsində yaşadığı zaman tam formalaşır. Lakin cəmiyyətin yaranması üçün yalnız insanların bir yerə toplanması əsas şərt deyil. Minlərlə insan bir yerə toplaşa bilər, lakin onların arasında ünsiyyət yoxdursa və onları ümumi bir məqsəd birləşdirmirsə, bu toplumu cəmiyyət adlandırmaq olmaz. Cəmiyyətdəki insanlar öz tələbatlarını ödəmək üçün bir-birinə bağlı, bir-biri ilə əlaqəlidirlər.



Cəmiyyət ailənin böyük formasıdır. Buna görə də ailədə olduğu kimi hər bir adamın həm cəmiyyət, həm də onun fərdləri qarşısında öz vəzifələri vardır. Bu vəzifələrin yerinə yetirilməsində hər kəs məsuliyyət daşıyır. **Ailə** sözü müştərək xüsusiyyətləri olan *elmi*, *texniki* və *sosial* qruplar üçün də işlədilir. Bəs ailə dedikdə nə başa düşürsünüz? Sual işarələrinin yerinə daha nələri əlavə etmək olar?




Ailə cəmiyyətin kiçik bir təməlidir. Orada yaşanan qarşılıqlı sevgi ailənin davamlı olmasını təmin edir. Doğulduğumuz gündən bizi tək qoymayan valideynlərimiz, hər zaman bizə sevgi ilə yanaşan nənə-babalarımız, sevincimizi və kədərimizi bir yerdə bölüşdüyümüz qohumlarımız ailəmizin ayrılmaz üzvləridir. Əlbəttə, hər ailə yuxarıda saydıqlarımız qədər geniş deyil. Əsas ailəmizdə xoşbəxtliyin olmasını hiss etməkdir.

*Ailə bağları o qədər ağırdır ki, daşımaq üçün iki, hətta üç adam lazımdır.*
***Aleksandr Düma***

*Bir anlığa təsəvvür edin ki, ailənizdə siz yalnız öz istəklərinizi yerinə yetirirsiniz, ata-ananızın, nənə-babanızın, bacı-qardaşınızın arzularını nəzərə almırsınız. Ailənizin digər üzvləri də bu cür davranır. O zaman vəziyyət necə olar? Yaşamaq mümkün olarmı? Bunu yoldaşlarınızla müzakirə edin.*



Təbii ki, belə ailədə yaşamaq çətin olar. Cəmiyyətdə də belədir. İnsanların birlikdə, mehriban, qardaşlıq, dostluq şəraitində, səadət içərisində yaşamalarını təmin edən qanunlara, qaydalara ehtiyac duyulur. Bu ehtiyac isə ancaq cəmiyyəti təşkil edən insanların mənəviyyatının zənginləşməsi ilə ödənilir.



**1.** Cəmiyyətdə ümumi məqsədlər nədir, maraqlar nədən ibarətdir? Fikirləşin və dəftərinizə yazın.

**2.** Sizin üçün ailə nə deməkdir? 20 adam arasında sorğu təşkil edin və nəticələri eyni zamanda %-lə qeyd edin.

| | | |
|---|---|---|
| Ailə bizim üçün ən əsas, ən dəyərli yer, birlikdə yaşamaqdır. | | % |
| Ailə qohumluq əlaqələri olan insan qruplaşmasıdır. | | % |
| Ailə həyat və xoşbəxtlik deməkdir. | | % |
| Ailə bir-birinə məsuliyyətli yanaşmaq deməkdir. | | % |
| Ailə ən əziz, dəyərli və güvənilən insanlardan ibarət qrupdur. | | % |
| Ailə ana, ata, bacı, qardaşlar və ev deməkdir. | | % |
| Ailə sevgi dolu evdir. | | % |
| Ailə kiçik dövlətdir. | | % |

**3.** Sizin sinfiniz kiçik bir cəmiyyətdir. Bu cəmiyyətdə hansı qayda-qanuna əməl etməli olduğunuzu müəyyənləşdirin və dəftərinizdə qeyd edin.

**4.** Azərbaycan ailəsinin adət-ənənələri haqqında kiçik təqdimat hazırlayın.

**5.** Verilmiş sözlərdən istifadə edərək insanlar arasındakı qarşılıqlı münasibətə aid mətn hazırlayın.
*Sevgi, diqqət, qarşılıqlı hörmət, ev, bir-birini anlamaq, çətin anlar, dost, böyüklərə və qocalara qayğı, rahatlıq, kədər, ailə üzvləri, mehribançılıq, kömək etmək.*

# 3 Mən də bir qrupdayam

*Cəmiyyətin xoşbəxtliyi fərdin xoşbəxtliyindən daha əhəmiyyətlidir.*
***Platon***

*Yəqin ki, tətil müddətində sinif yoldaşlarınız, müəllimləriniz, məktəbdəki dostlarınız, rəfiqələriniz üçün darıxmışdınız. Nəhayət, dərs ili başladı və sizin də vəzifələriniz artdı. Artıq yoldaşlarınızla birgə dərs oxumalı, müəyyən tədbirlər təşkil etməli, məktəbin tədbirlərində məsuliyyətlə iştirak etməlisiniz. Bu günə qədər hansı tədbirlərdə iştirak etmisiniz?*

*Hesab edin ki, sinif yoldaşlarınızla bərabər "Təbiəti qoruyaq" adlı divar qəzeti hazırlamalısınız. Bunun üçün nə etməlisiniz? Qrup üzvlərinin görəcəyi işləri planlaşdırın.*

Beləliklə, siz sinif yoldaşlarınızdan ibarət bir qrup yaratmış oldunuz. Unutmayın ki, görüləcək işləri şagirdlər arasında ədalətlə bölmək lazımdır. Qrup daxilində olan hər bir şagird də öz məsuliyyətini bilməli və işini düzgün yerinə yetirməlidir.

Belə qruplar *kiçik sosial qruplar* adlanır. Bu tip kiçik sosial qrupları siz nəinki divar qəzeti hazırlayarkən, idman dərslərində, gəzintilərə getdikdə və həyətdə yoldaşlarınızla müxtəlif oyunlar oynayan zaman da yaradırsınız. Ailə də kiçik sosial qrup hesab olunur.



*"Neftçi" uşaq futbol klubu*

*Cəmiyyətin xoşbəxtliyi üçün çalışanın özü də xoşbəxt olar.*
**S.Smayls**

Sosial qruplar arasında çoxlu fərq var. Əsas fərq onların tələbat və mənafelərindədir. Sosial qruplarda insanların sayı da bir-birindən fərqlənir. Sosial birlikdə *ilkin etnik qrup nəsildir*. O, ailələrdən əmələ gəlir və qan qohumluğuna əsaslanır. İki və daha çox nəsil *tayfa* əmələ gətirir. Bunlardan da böyük sosial qrup *xalqdır*. Xalq dedikdə qan qohumluğu başa düşülmür. Xalqın əsas əlamətləri, *eyni ərazidə yaşamaq*, ümumi *dil və mədəniyyətə* malik olmaqdır.



*Kazaklar*

Burada mövcud olan iqtisadi əlaqələr dərinləşdikcə, möhkəmləndikcə *millətin* yaranması prosesi baş verir. Müasir dövrdə bir çox millətlər öz müstəqil dövlətlərini qurmuşdur. Bunlar böyük sosial birliklərdir. Ən böyük sosial birlik *millət* və *siniflərdir*. Azərbaycanda və bir çox digər dövlətlərdə vətəndaşlar öz fikirlərini azad ifadə etmək üçün bir sıra böyük sosial birliklər yaradırlar ki, bunlar *ictimai birliklər* adlanır. Belə birliklər dövlətin qayda-qanunlarına uyğun olaraq fəaliyyət göstərir.

**1.** Futbol komandası yaratmaq istəyirsiniz. Komandaya daxil edəcəyiniz yoldaşları hansı xüsusiyyətlərinə görə seçərdiniz?

**2.** Şəkillərə baxıb buradakı insanların hansı qruplarda birləşdiyini dəftərinizə yazın.


1


2


3


4


5


6

**3.** Dram dərnəyi yaratmaq istəyirik. Lalə qrupun rəhbəri seçilir. Sizi də qrupumuza üzv qəbul edirik. Siz hansı işləri görə bilərsiniz? Fikirlərinizi dəftərinizə yazın.

**4.** Cədvəli tamamlayın. Hansı qrupların üzvüsünüz? Bu qruplardakı rolunuz nədən ibarətdir?

| Qrup | Üzv |
|---|---|
| | |

**5.** Məktəbdəki ən əhəmiyyətli rolunuz nədir? Nəyə görə bunu əhəmiyyətli hesab edirsiniz?

# 4 Xalqlar

*Sayı 100 milyondan çox olan ən böyük xalqlara çinlilər, hindistanlılar, ABŞ-da yaşayan amerikalılar, benqallar, ruslar, meksikalılar, braziliyalılar və yaponlar aiddir.*

*Yer kürəsində yaşayan bütün insanlar mənşəyinə görə eynidir. Lakin bütün insanlar ayrı-ayrı qruplara ayrılır ki, bu qruplar da **xalq** adlanır. Hər bir xalqın özünəməxsus mədəniyyəti, dili, dini, adət-ənənəsi, yaşayış tərzi, folkloru, milli geyimi və mətbəxi olur. Siz bizim xalqımızın göstərilən xüsusiyyətlərinə aid nə deyə bilərsiniz?*

*Şəkildəki xalqların geyimi, yaşayış tərzi, adət-ənənəsi və incəsənəti haqqında yoldaşlarınızla müzakirə aparın.*



*Hindlilər və çinlilər*

Dünyada say etibarilə bir çox böyük və qədim xalqlar mövcuddur. Bunlara misal olaraq çinliləri, hindistanlıları, türkləri, ərəbləri və başqa xalqları misal göstərə bilərik. Bu xalqların özünəməxsus tarixi, mədəniyyəti və adət-ənənələri vardır.

Çinlilər və hindistanlılar Cənub-Şərqi Asiyada, türklər isə Mərkəzi Asiya və Altay dağları ətrafında yaşamışlar. Sonralar türklərin yaşayış arealı daha da genişlənmişdir. Bu xalqların hər birinin özünəməxsus dinləri, adət-ənənələri olmuşdur. Bəşər tarixində bir çox yeniliklər məhz bu xalqların sayəsində əldə edilib. Kağızı, kompası, barıtı çinlilər; şahmatı və 0 rəqəmini isə hindlilər yaradıb. Çinlilər Konfutsi təliminə, hindistanlılar buddizmə, türklər isə səma cisimlərinə, şamanlığa inanmışlar.

Azərbaycanın əlverişli coğrafi şəraitdə yerləşdiyini bilirsiniz. Vətənimizin zəngin təbiəti hələ qədim dövrlərdən buranın yaşayış məskəninə çevrilməsinə səbəb olmuşdur. Tarixi mənbələrə görə Azərbaycanın etnik tərkibi daim genişlənmişdir. Bu isə Azərbaycanın hələ çox qədimdən tolerantlığı ilə seçildiyini göstərir. Onun ərazisində Azərbaycan türkləri ilə bərabər, başqa azsaylı xalqlar da yaşayırlar. Bu xalqların sayı çoxdur. Bunlara dağ yəhudiləri, tatlar, talışlar, kürdlər, ingiloylar, avarlar, ləzgilər, xınalıqlıları və başqalarını aid etmək olar. Hər bir xalq Azərbaycanda yaşasa da, özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlamışdır. Bu mədəniyyət məişət həyatında, sənətkarlıqda, mətbəxdə, müxtəlif mərasimlərdə öz əksini tapmaqdadır.

*Azərbaycanın Quba rayonu ərazisində yerləşən Xınalıq kəndi dünyanın ən yüksək yaşayış məskənlərindən biridir. Xınalıqlılar Azərbaycanın ən qədim sakinlərindən sayılır. Onlar ölkəmizin azsaylı xalqları içərisində özünəməxsus xüsusiyyətləri ilə seçilirlər. Bu etnos dünyada yeganə dilə və yaşayış məskəninə mənsubdur. Xınalıqlılar dünyada oxşarı olmayan kətiş dilində danışırlar.*



**1.** Azərbaycanda yaşayan etnik qruplar haqqında məlumat toplayın və cədvəli dəftərinizə çəkərək tamamlayın.

| Sıra № | Xalq | Yaşadıqları ərazi | Dili | Dini | Milli geyimi |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |

**2.** Regionunuzda yaşayan azsaylı xalqların mətbəxlərinin fərqli xüsusiyyətlərini yazın.

**3.** Slavyanlar (1) və meksikalılar (2) haqqında məlumat toplayın.


1


2

# 5 Dövlət və dövlətçilik

*Dövlətin başlıca əsasları yaxşı qanunlar və yaxşı qoşunlardır.*
***N.Makiavelli***

*Cəmiyyətdəki bütün birliklər bir qurumda birləşir, vahid dövlət hakimiyyətinə tabe olur. Yer kürəsində 200-dən çox dövlət var. Dövlət insanların birgəyaşayış formasıdır, onların qanuna, hakimiyyətə tabe olmasıdır. Dövlət dövlət orqanları vasitəsilə cəmiyyəti idarə edir, qoruyur, onun ictimai və siyasi quruluşunu təmin edir.*

*Hansı dövlət orqanlarını tanıyırsınız və onların funksiyaları nədən ibarətdir?*

Dövlət cəmiyyətin həyatına daim nəzarət edir. Müəyyən hallarda yeni dövlət orqanları yaradır, qanunlar qəbul edir.

*Sizcə, dövlətlər necə yaranmışdır? Fikirlərinizi əsaslandırın.*

Dövlətin yaranması haqqında müxtəlif fikirlər vardır. Bəzi alimlər hesab edirlər ki, dövlət *ailənin böyüməsi* nəticəsində yaranmışdır. Ata ailədə hər kəsə eyni cür qayğı göstərdiyi kimi, dövlət də hər kəsə eyni cür münasibət bəsləməlidir.



*Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin binası*



*26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü*

**Dövlətin əsas əlamətləri:**

- Öz ərazisinin və əhalisinin olması;
- Xüsusi qanunlarının mövcudluğu;
- Siyasi hakimiyyətin mövcudluğu;
- Ordusu;
- Rəmzlərinin olması (himn, gerb, bayraq);
- Milli pul vahidinin olması və s.

Dövlət xalqın mənafeyinə xidmət edir. O, siyasi quruluş olub müəyyən sərhədlər daxilində yaşayan xalqın idarə olunmasını həyata keçirir. Hər bir ölkənin vətəndaşı öz dövlətini qorumalıdır.

***Dövlətin əlamətləri ilə yanaşı, vəzifələri də vardır. Bütün dövlətlərdə olduğu kimi, Azərbaycanda da dövlət cəmiyyətdə əsas idarəedici və təşkilatçı qüvvədir. O, bir sıra mühüm vəzifələr yerinə yetirir:***

- Uşaqlara pulsuz təhsil almaq imkanı yaradır;
- Ətraf mühitin mühafizəsi haqqında qanunların həyata keçirilməsinə şərait yaradır;
- Dövlətimiz başqa dövlətlərlə siyasi, iqtisadi və mədəni əlaqələr yaradır, hərtərəfli əməkdaşlıq edir;
- İnsanların hüquq və azadlıqlarını müdafiə edir;
- Əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün tədbirlər həyata keçirir;
- Dövlət sərhədlərinin qorunması qayğısına qalır və s.

Dövlətin vəzifələri bir-biri ilə sıx bağlıdır. Ona görə də biri digərinin yerinə yetirilməsinə öz təsirini göstərir.



**1.** Dövlətin aşağıdakı xüsusiyyətlərinin hər birini izah edin:

☼ Dövlətin silahı, silahlı qüvvələri var (ordu, polis, təhlükəsizlik qüvvələri və s.);
☼ Dövlətin qanunvericiləri, hakimləri var;
☼ Dövlət ölkə daxilində heç bir hakimiyyətdən asılı deyil.

**2.** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi 90-cı illərin əvvəlində yaradılmışdır. Bu qurumun dövlət tərəfindən yaradılmasının məqsədi nədir? Fikirlərinizi əsaslandırın.

**3.** Cədvəli dəftərinizdə çəkin və doldurun.

| Dövlətin vəzifələri | Bu vəzifələri həyata keçirən dövlət orqanı | Cəmiyyət üçün əhəmiyyəti |
|---|---|---|
| Uşaqlara təhsil almaq imkanının yaradılması | | |
| Ətraf mühitin mühafizəsi | | |
| Dövlətimizin başqa dövlətlərlə əməkdaşlığı | | |
| İnsanların hüquq və azadlıqlarının müdafiəsi | | |
| Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması | | |
| Dövlət sərhədlərinin qorunması | | |

# 6 Dövlətim mənə xidmət edir

*Kim öz Vətəninin müdafiəsindən boyun qaçırırsa, onun bu torpaqda yaşamağa haqqı yoxdur.*

**Ulu öndər Heydər Əliyev**

*Biz hamımız Azərbaycan dövlətinin vətəndaşlarıyıq. Azərbaycan bizim üçün ilk növbədə anadır. Çünki o bizi bir ana kimi boya-başa çatdırır və qoruyur. Bu gün Azərbaycan müstəqillik əldə edib dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanı idarə edərkən daim doğma vətəni güclü, qüdrətli etmək, onun imzasını dünya dövlətlərinin imzasına qatmaq amalı ilə yaşamışdır. Hazırda bu uğurlu siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. Müstəqil Azərbaycan Ümummilli liderimizin şah əsəridir.*

*Sizcə, müstəqil Azərbaycanın Ümummilli liderimizin şah əsəri adlandırılmasının səbəbi nədir?*

Respublikamızda dövlət qanunlarının qəbulu ilə qanunverici orqan olan *Milli Məclis* məşğul olur. Millət vəkilləri səsvermə yolu ilə qanunları qəbul edirlər. Azərbaycan Respublikasının *Konstitusiyası Əsas Qanun* hesab olunur. Qanunlar cəmiyyətin sosial və ictimai həyatını tənzimləyir, vətəndaş-dövlət münasibətlərini nizama salır.

Qanunlara hörmət etməliyik, çünki o bizim hüquqlarımızı qoruyur.

Azərbaycan xalqının müasir tarixində baş verən Qarabağ müharibəsi nəticəsində soydaşlarımız doğma yurd-yuvalarından, əmlaklarından məhrum olmuş, fiziki və mənəvi zorakılığa məruz qalmışlar. Azərbaycan dövlətinin qayğısı nəticəsində məcburi köçkünlər mənzillərlə təmin olunur, uşaqları ali məktəblərdə pulsuz təhsil alırlar və s.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə şəhərində məcburi köçkün şəhərciyinin açılışı zamanı*

Dövlətimiz düşmən tapdağı altında qalan torpaqlarımızı azad etmək üçün müxtəlif tədbirlər həyata keçirir.

Respublikamızda *qanunların aliliyi* prinsipinə ciddi əməl olunur, özbaşınalığa yol verilmir. Hüquqi dövlətdə şəxsiyyət dövlət üçün deyil, dövlət şəxsiyyət üçün fəaliyyət göstərir. Dövlət cəmiyyət üzvlərinə xidmət edir, hər bir şəxsin azadlıq və hüquqlarının qorunmasına təminat verir. Milli Məclisin verdiyi qanunları icra hakimiyyətləri yerinə yetirir.



*Mübariz İbrahimov*

Qanunların keşiyində duran hakimiyyət orqanlarından biri də məhkəmələrdir. Bu orqanlar öz səlahiyyətlərini heç vaxt aşmır və vətəndaşlarına xidmət edir. Bizim də hər birimizin cəmiyyət qarşısında müəyyən vəzifə və borclarımız var. Ailəmizi, xalqımızı, dövlətimizi, bütün insanları sevmək, hörmət etmək, qayğıkeş, namuslu, qeyrətli, vəfalı və sədaqətli olmaq hər birimizin vəzifəsidir.



*Salatın Əsgərova*



*Vətən qarşısında mənəvi borcun nə olduğunu araşdırın.*

Vətən müqəddəsdir, Vətən əzizdir. Vətən torpağı toxunulmazdır. Vətəni təkcə “sevirəm” demək yox, onun azadlığı uğrunda hər an düşünmək lazımdır.



*Çingiz Mustafayev*

Azərbaycanın Babək, Koroğlu, Mehdi, Həzi kimi igid oğulları olmuşdur. Onlar Vətənin, xalqın azadlığı, xoş həyatı naminə mübarizə aparmış, öz canlarını qurban vermişlər.

Siz də Azərbaycanın övladlarısınız. Bu torpaqda boya-başa çatırsınız. Bu gün öz borcunuzu oxumaq, təbiəti qorumaq, adət-ənənələrə hörmətlə yanaşmaqla verirsiniz. Gələcəkdə isə bununla kifayətlənmək olmaz. Doğma torpağın bu gününü, sabahını yaxşı bilmək, sərvətlərini qoruyub çoxaltmaq, adət-ənənələri layiqincə qoruyub saxlamaq, onu gələcək nəsillərə ötürməklə vətəndaşlıq borcunuzu ödəmiş olarsınız.

Vətənpərvərlik ailədən başlayır, məktəbdə formalaşır, həyatda reallaşır. Bunu heç vaxt yaddan çıxarmayın!



1. Dövlətin qaçqın və məcburi köçkünlərə etdiyi yardımlar haqqında məlumat toplayın.
2. Qanunları qoruyan dövlət qurumları və onların vəzifələrinə aid cədvəl qurun.
3. “Dövlətim məni qoruyur” mövzusunda esse yazın.
4. Ümummilli liderimizin siyasətini davam etdirən dövlətimizin başçısı İlham Əliyevin gördüyü işlərlə bağlı təqdimat hazırlayın.

# 7 Hüquqlarımız qorunur

*Müəllimi göstərilən siyahını Namiqə vermişdir. Bu siyahıya əsasən Namiq verilənləri "vəzifələrim" və "hüquqlarım" başlığı altında qruplaşdırmalı idi. Sizcə, o, siyahıdakıları necə qruplaşdıra bilər?*

1. Fikrini azad ifadə edə bilmək.
2. Valideynin qayğısına qalmaq.
3. Vətəni qorumaq.
4. Qida və tibbi yardım ala bilmək.
5. Əsgər getmək.
6. Təhsil almaq.

*İnsanların hüquqlarını hansı qurumlar müdafiə edir?*

*Bir millətin yaşaya bilməsi üçün azadlıq və müstəqilliyə sahib olması lazımdır.*
***Atatürk***

İnsan hüquq və azadlıqlarının qorunması mühüm və aktual məsələlərdən biridir. Dövlətin vəzifələrindən biri də məhz insanların hüquq və azadlıqlarını müdafiə etməkdir. Lakin bunun üçün yalnız dövlət deyil, *qeyri-hökumət təşkilatları* və *beynəlxalq* qurumlar da məsuliyyət daşıyır.



İnsan hüquqlarının qorunması, hər şeydən əvvəl, *milli vəzifədir* və hər bir dövlət onun həlli üçün məsuliyyət daşımalıdır. Ölkəmizdə dövlət qurumları tərəfindən hüquqların qorunması müvafiq qanunverici orqanların və müstəqil məhkəmə sisteminin sayəsində təmin edilir.

Milli Məclisin tərkibində müxtəlif komitələr fəaliyyət göstərir. Bunlardan biri də İnsan Hüquqları Komitəsidir. Azərbaycan Respublikası Milli Məclisinin İnsan Hüquqları Komitəsi vətəndaşların hüquqlarının qorunması məqsədilə təşkil olunmuşdur.

> *Öz fikirlərini azad deyə bilməyənlərin heç bir azadlığı yoxdur.*
> ***Volter***

Qeyri-hökumət təşkilatlarına *ictimai birliklər* və müxtəlif fondlar daxildir. Qeyri-hökumət təşkilatları *öz fikirlərini sərbəst ifadə etmək, fəaliyyət çevikliyinə* və *bir yerdən başqa yerə hərəkət etmək sərbəstliyinə malikdir*. Bu da onlara dövlət qurumlarının və beynəlxalq qurumların həll edə bilmədikləri məsələləri həll etməyə imkan yaradır. Lakin qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasının Konstitusiyasına uyğun fəaliyyət göstərməlidirlər. Qeyri-hökumət təşkilatları bayraq, emblem və sair rəmzlərə malik ola bilər. İctimai birliklər fərdi şəxslər tərəfindən yaradılan qurumlardır. Fondlar isə, əsasən, yardım və müxtəlif layihələri maliyyələşdirmək məqsədi daşıyır. "İnsan Hüquqları XXI əsr – Azərbaycan" Fondu bunlardandır.

İnsan hüquq və azadlıqlarının qorunmasında beynəlxalq qurumların da rolu böyükdür. Bu məqsədlə 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) yaradılmışdır. Bu təşkilatın nizamnaməsinin yeddi bəndi bilavasitə insan hüquqları məsələlərinə həsr olunmuşdur. Buna əsasən BMT-nin İnsan Hüquqları üzrə Xüsusi Komissiyası yaradılmışdır. Komissiyanın hazırladığı "İnsan Hüquqları haqqında ümumi bəyannamə"ni qısa müddətdə bütün dünya dövlətləri imzalamışdır. Gələcəyin qurucuları olan uşaqların hüquqlarının pozulmaması üçün bəşəriyyət daima narahatlıq keçirir. Buna görə də BMT Baş Məclisi 1959-cu ildə "Uşaq Hüquqları Bəyannaməsi"ni qəbul etmişdir. Bu sənəddən otuz il sonra daha mükəmməl bir sənəd – "Uşaq Hüquqları Konvensiyası" qəbul edilmişdir. Bu konvensiya uşaq şəxsiyyətinə həsr olunmuşdur. Burada əsas müddəa uşaqların maksimum müdafiəsidir.

***UNICEF*** – Birləşmiş Millətlər Təşkilatının uşaq fonduna xidmət edir.

1949-cu ildə yaradılmış dövlətlərarası təşkilat – Avropa Şurasının da əsas məqsədi insan hüquqlarının müdafiəsidir. Təşkilatın Konvensiyasına görə, dövlət insanların hüquq və azadlıqlarını qorumağa borcludur.

1975-ci ildə insan hüquqlarını qoruyan digər bir təşkilat yaranmışdır. O, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlanır. Bu təşkilatın yekun aktına görə, öz vətəndaşlarının hüquqlarını pozan dövlət beynəlxalq aləmdə sülhsevər siyasət yürüdə bilməz. Buna görə də müasir dövrdə bir dövlətdə insan hüquqları pozularsa, digər dövlətlər onun vətəndaşlarının müdafiəsinə qalxır.



Azərbaycanda da uşaqların hüquqları dövlətimiz tərəfindən qorunur. Bu sahədə cənab Prezidentimiz İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, ***YUNESKO*** və ***İSESKO-nun*** xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü işlər cəmiyyət tərəfindən həmişə izlənilir və bəyənilir.



**1.** "Azərbaycanda uşaq hüquqlarının qorunması" mövzusunda esse yazın.

**2.** Uşaq hüquqlarını qoruyan təşkilatların adını cədvəldə yazıb vəzifələrini qeyd edin.

| Təşkilatlar | Vəzifələri |
|---|---|
| | |
| | |

**3.** Düzgün çıxışı tapın. Müəyyən etdiyiniz qurumla bağlı məlumat toplayın.

Beynəlxalq qurumlar →
- Azərbaycan İnsan Hüquqları Müdafiə Mərkəzi → I çıxış
- Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı → II çıxış

**4.** Aşağıdakı mövzularda məlumat toplayıb təqdimat hazırlayın:
- Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi.
- "İnsan Hüquqları XXI əsr – Azərbaycan" Fondu.

# 8 Bizim tələbatlarımız



*Dövlətin yerinə yetirdiyi vəzifələri yadınıza salın. Bu vəzifələrdən hansını dövlətin iqtisadi vəzifəsi adlandırmaq olar?*

Yaş fərqimizdən, peşəmizdən asılı olmayaraq biz hamımız iqtisadi proseslərin iştirakçısıyıq. Onun barəsində geniş təsəvvürünüz olmasa da, hamınız bilirsiniz ki, insan özünün mövcudluğu üçün yeməli, geyinməli və digər zəruri ehtiyaclarını ödəməlidir. İnsana yaşaması üçün lazım olanlar onun *tələbatlarıdır*. Bu tələbatları ödəmək üçün isə *istehsal* tələb olunur. İqtisadiyyatın da əsas vəzifəsi məhz istehsaldır.

*Mənəvi zövq əmək, zəhmət, iradə və fəaliyyət nəticəsində əldə edilir.*
***Nəsirəddin Tusi***

İstehsal üçün ilk növbədə iqtisadi resurs tələb olunur. Təbiətin insanlara bəxş etdiyi hər şey: faydalı qazıntılar, torpaq, su, təmiz hava, meşələr və s. təmənnasız "hədiyyə"dir. Bütün bunlar *təbii resurslar* adlanır. Bu resurslar istehsal üçün çox vacib amillər hesab olunur. Məsələn, kitab-dəftərimizi hazırlamaq üçün ağac, ayaqqabımızın hazırlanması üçün dəri, paltarlarımızın hazırlanması üçün isə pambıqdan istifadə olunur.







*Ancaq son illərdə məlum olmuşdur ki, bəzi resurslar tükənə bilər. Gəlin bu haqda fikirləşək. Buna səbəb nədir?*






*Parça istehsalı prosesinin sxemi*

İstehsal üçün həm də müəyyən dəzgahlar, müxtəlif avadanlıqlar, binalar, nəqliyyat vasitələri olmalıdır. Bunlar iqtisadi vasitələrdir.





Lakin istehsal üçün iqtisadi resursların, vasitələrin olması kifayət deyil. Bunun üçün insan əməyi də tələb olunur. Çünki insan əməyi olmadan istehsal mümkün deyil. Çörəyin süfrəmizdə olması üçün insanların bir hissəsi buğda əkir, onu becərir, dəyirmanda üyüdür,

un hazırlayır və nəhayət, çörək bişirilir. İnsanların digər qismi başqa nemətlərin hazırlanması ilə məşğul olur.

Belə bir nəticəyə gəlirik ki, iqtisadi resurslar, vasitələr və insan əməyi olmadan istehsal da olmaz.

*Bütün nemətlər içərisində ən gözəli və ən dəyərlisi torpaqdır. Ona qayğı bəsləməklə xalqın güzəranını yaxşılaşdırmaq mümkündür.*
***Həsən bəy Zərdabi***



**1.** Şəkillərdəki istehsal sahələrini müəyyənləşdirin.









**2.** Respublikamızda olan əsas istehsal sahələrinin siyahısını tərtib edin.
**3.** Neftin istehsalında iqtisadi resurs və iqtisadi vasitələri müəyyənləşdirin.
**4.** Çörək və geyim istehsalında hansı iqtisadi resurs və vasitələrə ehtiyac olduğunu müəyyənləşdirin.

# ƏTRAF MÜHİT VƏ SAĞLAMLIQ



# 1 Sağlam həyat tərzi



*Bir gün anası Əhmədi həkimə apardı. Həkim Əhmədə bəzi suallar verdi, Əhməd isə onları cavablandırdı.*

*– Oğlum, sən sağlamlığının qayğısına qalırsanmı?*

*– Bəli.*

*– Bunun üçün nə edirsən?*

*– İdman edirəm, meyvə-tərəvəz yeyirəm, vaxtında yatıram, atamla təmiz havada gəzirəm.*

*– Əhməd, səncə, bunlar sağlamlıq üçün kifayətdirmi?*

*Əhməd cavab vermədi, ancaq evə qayıdarkən bu barədə çox düşündü. Sizcə, sağlamlığın qorunması üçün bu sadalananlar kifayət edərmi? Nə üçün?*

*Sağlamlığın digər şərtləri hansılardır?*

Hər kəsin sağlamlığı öz əlindədir. Əgər biz gün rejiminə əməl etməsək, düzgün qidalanmasaq, təmiz havada gəzməsək, ya da idmanla məşğul olmasaq, get-gedə öz sağlamlığımızı itirərik. Ancaq sağlam olmaq üçün təkcə bunlar kifayət deyil. Hər adamın yalnız yaxşı qaməti, fiziki cəhətdən sağlam olması onun sağlamlığını ifadə etmir. İnsan həm də mənəvi və emosional cəhətdən sağlam olmalıdır.

*Verilmiş hadisələri sağlamlığın üç şərti baxımından təhlil edin.*



*Ülkər idmanla məşğul olur. Yaxşı oxuyur. Valideynlərinə, müəllimlərinə hörmətlə yanaşır. Lakin müəllimin suallarına cavab verərkən çox həyəcanlanır, evdə tək qalanda qorxur.*

*Natiq yaxşı oxuyur. Musiqiyə qulaq asmağı və rəsm çəkməyi çox sevir. Lakin sinif yoldaşları ilə kobud rəftar edir.*

Sağlam olmaq üçün gün rejiminə əməl edilməlidir. Bəs gün rejimi nədir? Gündəlik həyatı müəyyən qaydada qurmaq *gün rejimi* hesab olunur. Amma hər yaşın özünə uyğun gün rejimi olur. Bəzən siz evdəki baba və nənənizin, ya da digər böyüklərin gün rejiminə müvafiq hərəkət edirsiniz. Bu isə sağlamlığınıza ziyandır. Məktəblinin gün

rejiminə həmişə *eyni qaydada istirahət, normal yuxu, səhər idmanı, havada gəzmək, dərsi vaxtlı-vaxtında oxumaq və s.* daxildir. Lakin bu rejim düzgün qurulmalıdır ki, deyilənlərin hər birinə vaxt çatsın.

*Gün rejiminə düzgün əməl etmək – sağlamlıq, möhkəm yuxu, səhərdən axşamadək xoş əhvali-ruhiyyə, bütün gün üçün enerji deməkdir.*

Gün rejiminə əməl etmək hamı üçün vacibdir. Ona əməl etmədikdə orqanizm normal inkişaf etmir. Çünki insan həmişə eyni vaxtda yedikdə, yatdıqda, işlədikdə bunlar müəyyən vərdişə çevrilir. Orqanizm də bu vərdişə alışır. Dərsləri yaxşı oxumaq üçün düzgün qidalanmaq çox vacibdir. Yeməkdə vitaminlə zəngin olan meyvə və tərəvəzlərə üstünlük verilərsə, daha yaxşı olar. Yeməkdən sonra dərhal yatmaq isə orqanizmə pis təsir göstərir, narahatçılığa səbəb olur.



Yəqin ki, *idmanla* məşğul olmağı sevirsiniz. Çünki idmanla daim məşğul olduqda insan *güclü, gümrah* və *çevik* olur. Əzələlər hərəkət etdiyindən qan dövranı yaxşılaşır və orqanizm yaxşı inkişaf edir. Lakin bu da normada olmalıdır. Çünki sizin ürəyiniz, qan damarlarınız, sümükləriniz hələ tam formalaşmayıb. Onlar tez zədələnə bilər. Ona görə də əgər idman edirsinizsə, arada istirahət də etməlisiniz.

## Ətraf mühit və sağlamlıq



İnsanın mənəvi sağlamlığı onun mənsub olduğu ailəni, xalqı, dövləti, bütün insanları sevməyi, hörmət etməyi, qayğıkeş, namuslu, qeyrətli, vəfalı və sədaqətli olmasıdır. Bütün bunlar insanın dünyagörüşünü, həyat haqqındakı düşüncələrini müəyyənləşdirir.

Musiqi, rəsm əsərləri, bədii əsərlər, kinofilmlər və s. insanın emosional sağlamlığına təsir göstərir. Ona görə də sizə pis təsir edən mənfi emosiyalardan uzaq olmağa çalışın.





1. İnsan əxlaqlı, qamətli və güclüdür. Onun sağlamlığının digər göstəriciləri nələr ola bilər?
2. Öz gün rejiminizi yazın və onun düzgün olmasını əsaslandırın.
3. Verilmiş idman növlərinin əhəmiyyətini izah edin.

| **İdman növü** | **Əhəmiyyəti** |
|---|---|
| Üzgüçülük | |
| Xizəksürmə | |
| Atçılıq | |
| Atıcılıq | |
| Güləş | |
| Bədii gimnastika | |

4. Həm mənəvi, həm fiziki, həm də emosional cəhətdən sağlam uşağa aid kiçik mətn qurun.

# 2 Təhlükəsiz kompüter

*Anar 5-ci sinifdə oxuyur. Müəllimi ona "Təhlükəsiz kompüter" mövzusunda təqdimat hazırlamağı tapşırıb. O bunu necə edə bilər? Sizcə, hazırladığı təqdimatda Anar nələri qeyd etməlidir?*



Kompüter, demək olar ki, hər bir insanın həyatına daxil olub. Artıq kompüterdə işləmək yazıb-oxumaq qədər sadələşib. Kompüterdən təhsil sahəsində də geniş istifadə olunur. Yəqin ki, əvvəllər bu cihazdan ən çox oyunlar oynamaq, şəkil çəkmək üçün istifadə edirdiniz. Artıq böyümüsünüz. Kompüter sizin həyatınızda müəyyən bir yer tutur. Siz indi elektron kitabları əldə etmək, xarici dil öyrənmək, layihə və təqdimat hazırlamaq, şəkillər üzərində işləmək və s. üçün kompüterdən səmərəli istifadə edə bilərsiniz. Düzdür, həm oyunlar, həm də sadalanan bu əməliyyatlar olduqca maraqlıdır. Lakin bunu da unutmayın ki, kompüterin orqanizmə mənfi təsiri də vardır.

*Bəzən kompüterlərlə ehtiyatsız davranmaq bir sıra texnogen qəzalara səbəb olur. Bəs kompüterlə necə davranaq ki, xoşagəlməz və təhlükəli hallarla qarşılaşmayaq? Kompüter otaqlarında hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır? Bunu parta yoldaşınızla müzakirə edin.*



## Kompüterdə işləyərkən ehtiyatlı olun

*Uzun müddət kompüter arxasında oturduqda yuxu rejimi və iştaha pozulur.*

*Uzun müddət kompüter arxasında oturmaq onurğada patoloji əyriliklərə, qan dövranının pisləşməsinə səbəb olur.*




*Monitorun qarşısında çox oturmaq görmə qabiliyyətini zəiflədir.*

*İş masasının rahat və düzgün olmaması yorğunluğa səbəb olur.*

*Uzun müddət kompüter arxasında oturmaq sinir sisteminə təsir edir, əsəbləri gərginləşdirir.*

Həkimlər hesab edirlər ki, kompüterdə 30 dəqiqədən artıq fasiləsiz işləmək olmaz. Hər 15 dəqiqədən bir gözləri monitorun ekranından çəkərək uzağa baxmaq lazımdır. Bu halda görmə qabiliyyətinin pozulmasının qarşısını almaq olar.

1. Lalə istirahət vaxtının çoxunu kompüter qarşısında keçirir. Siz bunun ziyanlı olmasını ona necə izah edərsiniz?
2. “Kompüter insan beynini əvəz etməz” mövzusunda kiçik mətn hazırlayın.
3. Cədvəl qurub kompüterin faydası və zərərini yazın, müqayisə aparın.
4. Kompüterdə işləyən zaman hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır? Bu haqda kiçik təqdimat hazırlayın.

# 3 Sağlamlığımız təhlükədədir

*Nəzrin kənddə yaşayır. Hərdən ailəsi ilə birgə şəhərə – əmisigilə qonaq gəlir. Həm kənd, həm də şəhər həyatı onun üçün maraqlıdır. Nəzrin hesab edir ki, şəhərdə təhlükə ola bilməz. Çünki burada meşə yoxdur ki, insan azsın, vəhşi heyvanlar yoxdur ki, onların hücumuna məruz qalsın.*

*Sizcə, Nəzrinin düşüncələri doğrudurmu? Nə üçün?*

Dünyada baş verən fəlakətlərin siyahısına diqqətlə baxarkən aydın görmək olar ki, ən böyük təhlükə insanın öz əli ilə yaratdığında baş verir. Kimya zavodlarında partlayış, təyyarə qəzaları, qatarların toqquşması və s. həyatımızda rastlaşdığımız hadisələrdir.



*Şəkillərdə əks olunmuş fəaliyyətlər zamanı baş verə biləcək təhlükələri müəyyənləşdirin.*





Gündəlik həyatımızda bir sıra xoşagəlməz hallar həm özümüzün, həm də doğma və yaxın adamlarımızın başına gəlir. Nəqliyyat və elektrik qəzaları, yanğın, partlayışlar, dəm qazından zəhərlənmələr, meşədə yolu azıb itmək və s. Biz hesab edirik ki, evdə təhlükələrdən uzağıq. Lakin çox vaxt ehtiyatsızlığımızdan təhlükə ilə üz-üzə qalırıq. Ona görə də evdə üzləşəcəyimiz təhlükələri və onlardan xilasolma yollarını hamımız bilməliyik.

**Evdə ən çox rastlaşa biləcəyimiz təhlükələr:**
*yanğın, zəhərlənmə, hündürlükdən yıxılma, elektrik qəzası, qaz sızması, subasma, qapının bağlanması və s.*

Gündəlik həyatımızın bir hissəsini təşkil edən elektrik cihazları sadalamaqla qurtarmır: televizorlar, ütülər, paltaryuyan maşınlar və s. Bütün bu evdəki "elektrik parkı" ilə səriştəsiz rəftar etdikdə nəinki mənzildə, hətta bütöv bir binada fövqəladə hal yarana bilər.

Elektrikin insana təsiri cərəyanın gücündən və insanla onun "təmas" şəraitindən asılıdır. Bu halda ciddi xoşagəlməz hislərdən, yanıqdan başlayaraq qıcolma, tənəffüsün dayanması və hətta ölüm hadisəsinə qədər hər cür hadisə mümkündür. Mənzilimizdə elektrik naqilindən axan cərəyanın gücü insanın ölümünə səbəb ola bilər. İnsan izolyasiya olunmamış (üstü açıq) naqilə toxunarsa, onun sağlamlığı üçün təhlükəli vəziyyət yaranar. Mənzildə, evdə və ya bağda yanğın bizdən asılı olmayan səbəblərdən (məsələn, ildırım) də baş verə bilər. Ancaq biz odla ehtiyatsız davranıb, nasaz elektrik cihazlarından istifadə etsək və ya bir cərəyan qutusuna tozsoran, çaydan və soyuducunu eyni vaxtda qoşsaq, yanğını özümüz törədə bilərik.




Gündəlik həyatımızda əvvəlki əsrlərdən bizə "miras" qalmış bir sıra daha ciddi təhlükələrlə rastlaşırıq. Bunlara *terror, insanların girov saxlanılması, silahlı toqquşmalar, küçə iğtişaşları* və s. aiddir.





*Unutmayın: Əgər tanımadığınız bir insan sizi özünə cəlb etməyə çalışarsa, bərkdən qışqıraraq: "Kömək edin, mən bu insanı tanımıram" – deyib qaçmağa çalışın.*

*Təbii* və *texnogen* xarakterli fəlakətlərin qarşısında aciz qalmamaq üçün biz fövqəladə hallarda özümüzü qorumağı, başqalarına kömək etməyi bacarmalıyıq.



1. *Vaqonda və evdə yanğın baş verərsə, eskalator xarab olarsa,* bu zaman nə etmək lazımdır? Verilmiş situasiyalar nə ilə nəticələnə bilər?
2. Müasir dövrdə baş vermiş texnogen xarakterli böyük fəlakətlər yaratmış hadisələr haqqında məlumat toplayın.
3. Texnogen qəzaların baş verməməsi üçün təkliflər hazırlayın.
4. Aşağıdakı cədvəldə yanğının səbəblərini və təhlükəsizlik tədbirlərini qeyd edin.

| Yanğının səbəbi | Təhlükəsizlik tədbirləri |
|---|---|
| | |

# 4 Yol nişanları nə üçündür?

*Sxemi tamamlayın.*

| | | |
|---|---|---|
| xəbərdar edir | | qadağan edir |
| | ? | |
| istiqamət verir | | məlumat verir |

*Yol nişanları və yol hərəkəti qaydaları nə üçün əhəmiyyətlidir?*

Şəhər və qəsəbələr inkişaf edib genişləndikcə piyadaların da sayı artır. Küçə və yollarda hərəkət günü-gündən mürəkkəbləşir: səhərlər böyüklər işə tələsir, uşaqlar bağçaya, məktəbə gedirlər, axşamlar isə hamı işdən və məktəbdən qayıdır. Bu saatlarda piyadalar və sürücülər xüsusilə diqqətli və ehtiyatlı olmalıdırlar. Nəqliyyatın və piyadaların hərəkətini tənzimləmək və onların təhlükəsizliyini təmin etmək məqsədilə şəhər küçələrində, prospektlərdə, yollarda məlumatverici və göstərici nişanlar quraşdırılır.

Hal-hazırda dünyanın bir çox ölkələrində yüksək səviyyəli *yük, minik* və *xüsusi təyinatlı* avtomobillər istehsal edilir. Müasir avtomobillər sürücü və sərnişinlərin təhlükəsizliyini təmin edən texniki vasitələrlə təchiz edilmişdir. Unutmaq olmaz ki, nəqliyyat vasitələri, xüsusilə avtomobil həyatımızda mühüm yer tutur. Ancaq bu qədər avtomobilin gündəlik həyatımıza daxil olması ilə bir sıra problemlər də qarşıya çıxır.



*Aşağıdakı cədvələ əsasən yol qəzalarının səbəblərini və təhlükəsizlik tədbirlərini müəyyənləşdirin və dəftərinizə qeyd edin.*

| Yol qəzalarının səbəbləri | Təhlükəsizlik tədbirləri |
|---|---|
| | |

Piyadalar, sərnişinlər və sürücülər yol hərəkəti iştirakçılarıdır. Hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün hərəkət iştirakçıları yol hərəkəti qaydalarını bilməli və onlara dəqiq əməl etməlidirlər.

## Bəzi yol nişanlarının izahı

**Piyadaların hərəkəti qadağandır**



**Velosiped zolağı**



**Velosipedlə hərəkət qadağandır**



**Piyada zolağı**



**Uşaqlar**



**Əlillər**



**İşıqfor**



**Avtobus dayanacağı**



**Piyada keçidi**



**Yeraltı piyada keçidi**



**İlk tibbi yardım məntəqəsi**





*Yol hərəkəti qaydalarını yalnız sürücülərin bilməsi ilə iş bitmir. Bəs biz piyadalar hansı qaydalara əməl etməliyik? Bu qaydalar nə üçün bu qədər əhəmiyyətlidir? Fikirlərinizi əsaslandırın.*



Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi problemi hələ qədimdən mövcud olmuşdur.

Yol ilk dəfə eramızdan əvvəl Roma imperiyasında salınmışdır. “Bütün yollar Romaya aparır” ifadəsi də elə o vaxtlar yaranmışdır. Romaya aparan yolların örtüyü daşdan olmaqla, onun kənarında hər kilometrlərdən bir daş dirək qoyulurdu.

Hələ ilk vaxtlardan yollarda hərəkət soltərəfli olmuşdur. Səbəb isə gedən atlıların və ya piyadaların təhlükə ilə rastlaşdıqları anda özlərini müdafiə etmək üçün sağ əllərinə sərbəstlik yaratmalarıdır.

Avtomobil və onun hərəkəti zamanı təhlükəsizlik problemləri üzrə *Birinci Beynəlxalq konfrans* 1909-cu ildə Paris şəhərində keçirilmişdir. Bu konfransda ilk avtomobil Konvensiyası qəbul edilmişdir. Həmin konfransda ilk dəfə olaraq yol hərəkətini tənzimləyən 4 yol nişanı qəbul edilmişdir. Bunlar *yol ayrıcı, dəmir yol kəsişməsi, nahamar yol* və *döngəli yol* nişanları idi. Bu nişanlar maneələrdən 250 metr qabaqda qurulmalı idi.

*Verilmiş şəkillərə əsasən hansı piyadanın hansı qaydalara əməl etməli olduğunu müəyyən edin. Bu qaydalar nə üçün əhəmiyyətlidir?*





Yol qəzalarının qurbanlarına çevrilməmək üçün yol hərəkəti qaydalarını yaxşı bilmək və onlara əməl etmək vacibdir. Yoldaşlarınız yol hərəkəti qaydalarına əməl etmirsə, onlara qoşulmayın. Yolda mütləq yol hərəkəti qaydalarına uyğun hərəkət edin.



**1.** Dəftərinizdə cədvəl çəkib göstərilən yol nişanlarının nəyi ifadə etdiyini qeyd edin.

| Yol nişanları | Nəyi ifadə edir? | Əhəmiyyəti |
|---|---|---|
|  | | |
|  | | |
|  | | |
|  | | |
|  | | |

**2.** Yol sökülmüşdür, lakin ora qəzalı vəziyyəti göstərən heç bir işarə qoyulmamışdır. Bu halda nə baş verər?

**3.** İri şəhərlərdə maşınlar hədsiz çoxdur. Bu, nəqliyyatın işini çətinləşdirir. Siz bu çətinliyi aradan qaldırmaq üçün hansı təklifləri irəli sürərdiniz?

**4.** Yaşadığınız ərazidə piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə hansı yol nişanları qoyulmuşdur?

**5.** Verilmiş mətni tamamlayın.
*Vüsal 3-cü sinifdə oxuyur. O, atası ilə Şəmkirə nənəsinin yanına gedirdi. Yolda öz-özünə düşünür: "Görəsən, yollarda gördüyüm bu nişanlar olmasa, nə baş verər?"*

# 5 Yol hərəkəti qaydalarına əməl edək






*Şəklə əsasən kimin düz, kimin səhv hərəkət etdiyini müəyyən edin.*

Çox zaman yalnız sürücülərin deyil, həmçinin piyadaların təqsiri üzündən bədbəxt hadisələr baş verir. Xüsusilə uşaqların yol hərəkəti qaydalarını bilməmələri, yaxud onlara əməl etməmələri xoşagəlməz hadisələrin baş verməsinə səbəb olur.

Odur ki hərəkətin təhlükəsizliyinin təmin edilməsi piyadaların *diqqətli olmalarından, onların yolda davranış qaydalarını bilmələrindən* və *bu qaydalara əməl etmələrindən* asılıdır.

*Yolun çiyni – ikitərəfli yollarda yolu keçərkən maşınların hərəkətinə əvvəlcə sol çiyin, yarısını keçdikdən sonra isə sağ çiyin istiqamətində diqqət etməkdir.*

*Dünyanın ən enli yolu olan “Monumental Axis”də (Braziliya) eyni anda 160 maşın yan-yana hərəkət edə bilir.*

Siz məktəblilərin yol hərəkəti qaydalarını öyrənmələri, ilk növbədə, bizi əhatə edən mühitdə özünüzü qorumaq vərdişlərinin formalaşmasına xidmət edir.



Uşaqlar, siz ildən-ilə böyüyürsünüz. Çoxlarınız artıq küçə və yollarda sərbəst hərəkət edirsiniz. Təbiidir ki, sizin hərəkətlərinizə nə valideynləriniz, nə də müəllimləriniz nəzarət edə bilirlər. Odur ki sizin yol hərəkəti qaydalarını bilməniz və küçədə ona əməl etməklə intizamlı olmanız çox vacibdir.



*İbtidai sinifdən bir neçə yol hərəkəti qaydaları ilə tanışsınız. Bu qaydaları yadınıza salın. Bir neçəsini dəftərinizə qeyd edin.*



İntizamlı piyada olmaq üçün hər şeydən əvvəl, təhlükə haqqında təsəvvürümüz olmalıdır. Bu barədə təsəvvürümüz olmazsa, küçədə istədiyimiz kimi hərəkət edərik. Elə zənn edirik ki, çox cəld hərəkət edə, hətta son anda belə hərəkət edən nəqliyyatın qabağından qaçıb keçə bilərik. Bu əsla belə deyil. Unutmayın ki, nəqliyyat vasitəsi sürətini dərhal azalda bilməz. Sürücünün əyləci basmasına baxmayaraq, onun dayanması müəyyən vaxt tələb edir.

**Yol polisi bizə tövsiyə edir: *Qaydalara əməl edin.***

! *Dəstə halında yalnız günün işıqlı vaxtı, böyüklərin müşayiəti ilə ancaq səki və piyada zolağı ilə, bunlar olmadıqda isə yolun çiyni ilə keçmənizə icazə verilir.*

! *İşıqforla nizamlanan keçidlərdə piyadalar üçün qoyulmuş “keçin”, “dayanın” işıq göstəricilərinə ciddi əməl edilməlidir.*

*Sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmayan hissələrində yalnız görünüş dairəsində nəqliyyat vasitəsi olmadıqda yolu keçmək olar.*

*Dayanmış nəqliyyat vasitəsinin arxasından yolun hərəkət hissəsinə çıxmazdan əvvəl yaxınlaşan nəqliyyat vasitəsinin olmadığını yəqin etmək lazımdır.*

*Küçəni və yolu keçmək üçün yalnız bu məqsədlə ayrılmış körpülərdən, göstəricilər, yol nişanları və ya xətlərlə ayrılmış piyada keçidlərindən istifadə etmək lazımdır.*

*Yolun hərəkət hissəsində zərurət olmadan ləngiməməli və dayanmamalısınız.*

*Hərəkət zamanı sürücünün diqqətini nəqliyyat vasitəsini idarə etməkdən yayındırmamalısınız.*

*Küçələrdə piyada səkilərindən istifadə etmək lazımdır.*



**1.** Sürücülərə və piyadalara qoyulan tələblər eyni ola bilərmi? Nə üçün?
**2.** Yol hərəkəti qaydaları olmasa, nə baş verə bilər? Buna uyğun kiçik mətn qurun.
**3.** Aşağıdakılardan hansı doğrudur?
- a) Sürücülərlə piyadalar eyni qaydalara əməl etməlidirlər.
- b) Piyadalar küçəni keçmək üçün yalnız bu məqsədlə ayrılmış körpülərdən, piyada keçidlərindən istifadə etməlidirlər.
- c) Yol hərəkəti qaydalarını bilmək o qədər də vacib deyil.
- d) Yol hərəkəti qaydalarına yalnız piyadalar əməl etməlidirlər.
- e) Yol qəzaları yalnız sürücülərin ehtiyatsızlığı üzündən baş verir.

# TƏBİƏTİ GƏZƏK VƏ TANIYAQ



# 1 Təbiətdəki cisim və maddələr

## *Təbiəti gəzək və tanıyaq*

*İlk dəmir əşyalar eramızdan 2000 il əvvəl Misirdə, Assuriyada, Hindistanda və Çində düzəldilmişdir.*



*Şəklə əsasən otaqdakı cisimləri müəyyənləşdirin.*

*Qələm, ağac, top, qlobus, dəftər, radio, televizor* və s. cisimlərdir. Bu cisimlərin bəzilərini insan düzəldir, bəziləri isə təbiətdə mövcuddur. İnsan tərəfindən düzəldilməyən cisimlər *təbiət cisimləridir*. Cisimlərin müəyyən forması və həcmi olur. Eyni həcmli müxtəlif formalı cisimlərlə yanaşı, müxtəlif həcmli eyni formalı cisimlərə də rast gəlmək mümkündür.

*Aşağıdakı cisimlərin forması və həcmi haqqında nə deyə bilərsiniz?*





Ətrafımızdakı cisimlər müxtəlif maddələrdən təşkil olunmuşdur. *Su, hava, rezin, kauçuk, şəkər, yağ* və s. maddədir. Eyni maddədən müxtəlif cisimlər, müxtəlif maddələrdən isə eyni cisimlər hazırlana bilər. Məsələn, qələmin gövdəsi metaldan və plastik maddələrdən, qazanlar isə mis, alüminium və s. hazırlana bilər.

*Şəkillərdəki cisimlər nə üçün bu cür qruplaşdırılmışdır?*













Təbiətdə milyonlarla maddə vardır. Onların bir qismi *təbii maddələrdir*, bir qismi isə *süni yolla* əldə edilir.

### MADDƏLƏRİ NECƏ FƏRQLƏNDİRƏK?

Cisim və maddələr arasında daim qarşılıqlı əlaqə mövcuddur. Maddələrdən müxtəlif cisimlər düzəltmək, bir maddədən başqa maddəni almaq olur.

*Bəs maddələr təbiətdə hansı formada olur? Bunu şəkillərə əsasən müəyyən edin.*







Təbiətdəki maddələr bir-birindən fərqlənir. Onlara təbiətdə 4 halda rast gəlinir: *bərk, maye, qaz* və *plazma*.

*Daş, dəmir, buz* və s. maddənin bərk halıdır. *Su, benzin, kerosin* və s. mayedir. Qaz halında olan maddələrə misal olaraq *havanı, təbii*

*qazı, oksigeni* və s. göstərmək olar. *Alov qığılcımı* maddənin *plazma* halına aiddir. Alimlər təbiətdə olan bütün maddələri, onların xassələrini, təbiət hadisələrini, canlı və cansız təbiəti öyrənmək üçün müxtəlif üsullardan istifadə edirlər.





**1.** Cavabları dəftərinizə yazın.

a) yemək bişirdiyimiz qazan taxtadan …
b) qayçı plastik materialdan …
c) ayaqqabılarımız şüşədən hazırlansa idi, … ***nə olardı***?

**2.** Verilmiş cisimlər hansı maddədən hazırlanmışdır? Qruplaşdırın.


1

2

3

4

5

6

7

**3.** Düzgün çıxışı müəyyən edin.

Cisimlər
→ yalnız forması var → rezin cisimdir. → I çıxış
→ forması və həcmi var → müxtəlif ölçülü qaşıqlar hamısı eyni həcmlidir. → II çıxış
→ forması və həcmi var → Çaydanlar müxtəlif maddələrdən hazırlana bilər. → III çıxış

**4.** Krossvordu tamamlayın.

1) bəzək əşyası
2) məişət əşyası
3) nəqliyyat vasitəsi
4) dəmirçi aləti
5) kənd təsərrüfatı aləti

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | ☐ | ☐ | ☐ | **d** | ☐ | ☐ | ☐ | ☐ | ☐ |
| | | 2 | ☐ | **ə** | ☐ | ☐ | ☐ | ☐ | |
| | 3 | ☐ | ☐ | **m** | ☐ | | | | |
| 4 | ☐ | ☐ | ☐ | **i** | ☐ | | | | |
| | | 5 | ☐ | **r** | ☐ | ☐ | | | |

# 2 Mühit amilləri və təbiət hadisələri

*Ətrafınıza diqqətlə baxsanız, orada müxtəlif canlılar görərsiniz.*



*İnsan, heyvan, bitki, göbələk və digər canlı orqanizmlərin yaşadığı şərait bütövlükdə **təbii mühit** adlanır. Mühit və orqanizm vəhdət təşkil edir. Bütün canlı orqanizmlər müəyyən mühitdə yaranmış və ona uyğunlaşmışdır. Orqanizm daim onu əhatə edən mühit amillərinin təsirinə məruz qalır. Təbiətdə mühit amilləri hansılardır?*

Canlılara ətraf mühitdən təsir edən amillər (hava, işıq, temperatur, orqanizmlər, müxtəlif hadisələr, neft, torpaq, su, radiasiya və s.) *mühit amilləri* və ya *ekoloji amillər* adlanır. Bu amillər canlı və cansız olmaqla iki yerə ayrılır. Hər hansı bir amil kəskin dəyişərsə, həmin mühitdəki orqanizmlərin yaşaması çətinləşər və bu da tədricən onların məhvinə gətirib çıxara bilər.

Təbiətdə *işıq* olmasa, bitkilər məhv olar. Belə ki uzun müddət qaranlıq otaqda saxlanılan otaq bitkisi saralır və məhv olur. Heyvanların çoxu günün maksimal uzun olduğu yaz və yay aylarında daha fəal olur, nəsil verib çoxalır.





Təbiətin əsas ekoloji amillərindən biri də *temperaturdur*. Canlıların yaşaması üçün istiliyin olması vacibdir. Lakin orqanizmlər güclü şaxtalarda olduğu kimi, çox yüksək istiyə də dözə bilmir və məhv olurlar.

*Su* da əsas ekoloji amillərdən biridir və canlıların yaşaması üçün vacibdir. Su olmayan yerdə canlı yaşaya bilməz.



*Suyun canlıların həyatındakı roluna dair fikirlərinizi ümumiləşdirib təqdim edin.*

*Günəş şüaları okeanda 1000 metr dərinliyə qədər çata bilir.*

İşıq, temperatur və su ilə yanaşı, *torpaq* və *relyef* kimi cansız amillər də canlılar üçün vacibdir. Hündür dağlara qalxdıqca havanın temperaturu azaldığından bu yerlərdə soyuğadavamlı bitki və heyvanlar yaşayır.



Ətraf mühitin canlı amilləri deyərkən, əsasən, *bakteriyalar*, *göbələklər*, *bitkilər* və *heyvanlar* nəzərdə tutulur. Bu canlılar bir-birinə təsir edirlər. Məsələn, otyeyən heyvanlar bitkilərlə, yırtıcı heyvanlar isə, əsasən, otyeyən heyvanlarla qidalanır. Ona görə də canlılar arasında daimi *qida əlaqələri* mövcuddur. Əgər bu əlaqə olmasa, canlılar məhv olar.



Təbiətdə müxtəlif dəyişmələr baş verir. Baş verən bütün dəyişmələrə *hadisə* deyilir. *Fəsillərin əmələ gəlməsi*, *Günəşin çıxması* və *batması*, *şimşək* və *ildırım çaxmaları*, *Günəş* və *Ay tutulmaları*, *vulkan* və *zəlzələlər*, *suyun donması* və *buxarlanması*, *buzun əriməsi*,



*çayların daşması, bitkilərin böyüməsi və çiçəklənməsi, heyvanların çoxalması, yazda cücülərin* və *quşların görünməsi* təbiət hadisələridir.

Təbiət hadisələrinin bir qismi bəzən problemlər yaradır. Məsələn, respublikamız üçün o qədər də xarakterik olmayan güclü yağışlar və istilər təbiətə, həm də insanlara xeyli ziyan vurur.

*Güclü yağışlar təbiətə və insanlara nə kimi ziyan vura bilər? Yoldaşlarınızla müzakirə edin.*





*Kür çayının daşması*

Təbiətdə *anomal hadisələr* daim baş verir. Bir il havalar kəskin isti, bir il isə soyuq və yağıntılı ola bilər. Hazırda dünyada qlobal iqlim dəyişkənliyi müşahidə olunur. Bu proses Azərbaycana da öz təsirini göstərir. Qeyd olunanların hamısı təbiətdə baş verən hadisələrdir.

Lakin anomal hadisələr yalnız cansız təbiətdə deyil, canlı təbiətdə də baş verir. Buna yayda quraqlıq zamanı bəzi cücülərin kütləvi artmasını misal göstərmək olar. Hətta bəzən elə olur ki, kəpənəklər çoxalarkən onların tırtılları bütün bir meşənin ağaclarının yarpaqlarını məhv edir. Daha bir misal: çəyirtkələrin, gəmiricilərin kütləvi surətdə çoxalması təbiətdə *bioloji tarazlığa* təsir göstərir. Məsələn, çəyirtkələr qarşılarına çıxan bütün yaşıl bitkiləri məhv edir. Belə hallar çox vaxt kənd təsərrüfatına böyük ziyan vurur. Son illərdə Azərbaycanın bəzi rayonlarında ilanların kütləvi artması müşahidə olunur. Belə qeyri-adi hadisələri təbiətdə tez-tez müşahidə etmək mümkündür.



**1.** Düzgün çıxışları tapın.

Mühit amilləri → canlı; cansız

canlı → bakteriyalar; torpaq

cansız → relyef; göbələklər

bakteriyalar → I çıxış

torpaq → II çıxış

relyef → III çıxış

göbələklər → IV çıxış

**2.** Çürüntü bakteriyaları bitki və heyvan qalıqlarını çürüdərək minerallaşdırır. Təbiətdə bunlar olmazsa, nə baş verər?

**3.** Su hövzələrinin çirklənməsi, meşələrin qırılması həşəratların azalmasına səbəb olur? Təbiətdə həşəratlar olmazsa, nə baş verər?

**4.** Şam ağacının aşağı hissəsində olan budaqlar tez quruyur. Səbəbini araşdırın.



**5.** Cansız və canlı amilləri seçin.



1



2



3



4

# 3 Təbiət qəzəblənib


Vulkan

*Çox vaxt bizdən asılı olan və olmayan səbəblərdən həyatımızı təhlükə qarşısında qoyuruq. Təhlükə bizi qəflətən hər yerdə yaxalaya bilər. "Fövqəladə hadisələr" ifadəsini televiziya ekranlarından, radiodan tez-tez eşidir, qəzet-jurnal səhifələrində bu sözlərə vaxtaşırı rast gəlirik.*

Fövqəladə hadisə nə deməkdir? Bunun bizim sağlamlığımızla nə əlaqəsi var?

*Hər gün dünyada 50 minə yaxın zəlzələ baş verir. Bunların əksəriyyəti zəif zəlzələlərdir.*

Təbiət hadisələrindən *zəlzələlər, vulkan püskürmələri, daşqınlar, sellər, torpaq sürüşmələri, sunami, tufan, tornado* və s. fövqəladə hadisələrdir.

Fövqəladə hadisələr təbii və texnogen olmaqla qruplaşdırılır.

Elm və texnikanın nailiyyətlərinə baxmayaraq, biz tez-tez təbii fəlakətlərin qarşısında aciz qalırıq. Bəzən təbii fəlakətlər minlərlə insanın həyatına son qoyur.



Sunami

> *Sakit okeanın qərbində qasırğanı tayfun, Hindistanda siklon, Avstraliyada isə villi-villi adlandırırlar.*

*Zəlzələ* ən böyük dağıdıcı qüvvəyə malik olan təbii fəlakətdir. O həm quruda, həm də suyun altında baş verə bilər. Zəlzələlər həmişə öz dağıdıcı qüvvəsi, yer qabığının tərpənməsi, sunamilərin yaranması və s. hallarda meydana gələn nəticələri ilə insana böyük ziyan vurur. Güclü zəlzələlər zamanı çoxlu insan həlak olur, evlər uçur, şəhərlər dağılır. İnsanların uzun illər boyu qurub-yaratdığını zəlzələ bir anda məhv edə bilir. Ən güclü zəlzələlər 12 bal gücündə olur. Bizim ölkəmizdə də zəlzələlər baş verir. XII əsrdə Gəncədə baş vermiş zəlzələ nəticəsində şəhər yerlə yeksan olmuş, çoxlu insan tələfatı müşahidə edilmişdir. Ötən əsrin əvvəllərində baş verən zəlzələ Şamaxı şəhərini tamam dağıtmışdır.



*2015-ci il dekabrın 4-də güclü şimal küləyi nəticəsində dənizdə dalğanın hündürlüyü 9-10 m-ə çatmışdır. Nəticədə “Günəşli” yatağında 10 saylı dərin dəniz özülündə sualtı qaz xəttinin dayaq borusu qırılmış, şiddətli yanğın baş vermişdir.*

*Bu hadisələri müxtəlif nöqteyi-nəzərdən qiymətləndirin.*



Ən ağır təbii fəlakətlərdən biri də *daşqındır*. Bu, dənizdə, göldə, çayda suyun səviyyəsinin kəskin surətdə qalxması və ətrafı su basması deməkdir. Daşqının əsas səbəbi güclü leysan, intensiv qar ərimәsi, çayda küləyin yaratdığı dalğa və sairədir. Daşqın qəfil baş verən hadisədir. O, bir neçə saatdan 2-3 həftəyə qədər davam edə bilir, binaları, yolları, körpüləri, evləri dağıdır, insanları, ev və vəhşi heyvanları məhv edir. Daşqınlar Azərbaycan təbiəti üçün xarakterik hadisədir.

Qar uçqunları, gur sellər, dəhşətli sürüşmələr — bütün bu təbiət hadisələri dağlıq ərazilərlə bağlıdır və insanlar, eləcə də onların evləri, yollar, körpülər və digər obyektlər üçün böyük təhlükədir.

1. Cədvəli dəftərinizə çəkin və verilmiş hadisələrin xüsusiyyətlərini və yarana biləcək təhlükəni onun müvafiq xanasına yazın.




| Fövqəladə hadisə | Xüsusiyyəti | Yarana biləcək təhlükə |
|---|---|---|
| | | |
| | | |

2. Sunami zamanı baş verə biləcək fəlakətlərin siyahısını tərtib edin.
3. Güclü daşqınların vurduğu ziyana aid esse yazın.
4. Fövqəladə Hallar Nazirliyinin vəzifələri haqqında məlumat toplayın.
5. Son dövrlərdə respublikamızda baş vermiş fövqəladə hadisələrin siyahısını tərtib edin.
6. Ən dəhşətli hesab etdiyiniz fövqəladə hadisəni əks etdirən rəsm çəkin.

# 4 Günəş sistemində baş verən hadisələrin sirri

*Şəklə baxın və orada gördükləriniz haqqında bildiklərinizi yoldaşlarınızla müzakirə edin. Şəkli bütövlükdə necə adlandıra bilərsiniz?*



Bizi əhatə edən *kainat* (kosmos) sonsuz və əbədi aləmdir. Kainatda çoxsaylı səma cisimləri: ulduzlar, planetlər, peyklər, asteroidlər, kometalar, meteoritlər və s. vardır. Bu səma cisimləri bir-biri ilə qarşılıqlı əlaqədə olub, sistem əmələ gətirir. Belə sistemə *qalaktika* (kəhkəşan) deyilir. Kainatda yüz milyonlarla qalaktika var.

*Günəş sisteminin bütün planetləri Yupiter planetinin içərisinə yerləşə bilər.*

Bizim qalaktika "*süd yolu*" və ya "*saman yolu*" adlanır. "Süd yolu"nda Yerə ən yaxın olan ulduz Günəşdir. O çox da böyük ulduz deyil. Bizə yaxın olduğu üçün böyük görünür. Günəşin ətrafında *8 planet* dövr edir. Bu planetlər bütünlükdə *Günəş sistemini* əmələ gətirir.

Günəşə ən yaxın olan planet *Merkuridir*. Merkuridən sonra *Venera* gəlir. Venera Yerə ən yaxın olan planetdir. Günəşə yaxınlığına görə Veneradan sonra *Yer, Mars, Yupiter, Saturn, Uran* və *Neptun* planetləri gəlir.

Yer səkkiz kosmik səyyah ailəsində *3-cü* planetdir. Biz diametri 12 min 750 kilometr olan bu kürəşəkilli nəhəng təbii "kosmik gəmi-



nin” sakinləriyik. Bəs bizim planet çoxmu böyükdür? O, Merkuri, Mars və Veneradan bir qədər böyükdür. Yupiter, Saturn və Urandan isə çox kiçikdir. Yer kürəsi ətrafında bir dəfə tam dolanmaq üçün 40 min kilometr yol getmək lazımdır.

*Marsdakı dağların hündürlüyü 20–25 kilometrə çatır.*

Planetlər Günəşin ətrafında dolandığı kimi, planetlərin də ətrafında peyklər dolanır. Yerin peyki *Aydır*. *Merkuri* və *Veneranın* peyki yoxdur.

Günəş sistemində bir sıra hadisələr baş verir: Günəş və Ay tutulmaları, planetlərin paradı, hərəkəti və s.



Yer kürəsi də bütün digər planetlər kimi hərəkət edir. Yerin iki cür hərəkəti vardır:

**1. Yerin öz oxu ətrafında hərəkəti.**

Bu vaxt nə baş verir?

Yer kürəsi öz oxu ətrafında qərbdən şərqə doğru hərəkət edir. O öz oxu ətrafında tam dövrünü 24 saata (bir sutka) başa vurur. Bu hərəkətin nəticəsində də *gecə-gündüz* yaranır. Yer kürəsinin günəş işığı düşən hissəsində gündüz, əks tərəfində isə gecə olur.

**2. Yerin Günəş ətrafında hərəkəti.**

Bu vaxt nə baş verir?

Yer öz oxu ətrafında olduğu kimi, Günəş ətrafında da hərəkət edir. Yer Günəş ətrafındakı hərəkətini 365 sutkaya, yəni bir ilə başa vurur. Bu da planetimizdə fəsillərin yaranmasının bir səbəbidir.






1. Əl fənəri ilə qlobusa işıq salıb gecə və gündüzün necə yarandığını müşahidə edin.
2. Bəzi ölkələrdə yalnız yay fəsli müşahidə olunur. Bunun müsbət və mənfi tərəflərini müəyyənləşdirin.
3. Planetlərin paradı haqqında məlumat toplayın.

# 5 Ekoloji mühitin canlılara təsiri

*İynəyarpaqlı ağaclar ən soyuğadavamlı ağaclardır.*

*Qarabağ münaqişəsi zamanı bir sıra heyvanlar həmin əraziləri tərk etmişdir. Sizcə, buna səbəb nədir?*

Təbiətdə baş verən dəyişikliklər canlılara müxtəlif cür təsir göstərir. Orqanizmlər bu dəyişikliklərə müxtəlif cür uyğunlaşır.

Məsələn, bakteriyaların bəziləri +146°C temperaturda, şimalda yaşayan bitki və heyvanlar isə −70°C temperaturda belə məhv olmurlar.

Elə orqanizmlər də var ki, onlar mühitin dəyişməsinə çox da dözə bilmirlər. Məsələn, quruda yaşamağa uyğunlaşmış bitki və heyvanların əksəriyyəti güclü isti və şaxtalarda məhv olur.



*Canlıların güclü isti və soyuqlardan qorunması üçün hansı uyğunlaşmaları vardır? Müəyyənləşdirin və müzakirə edin.*







Bilirsiniz ki, Günəş həyat mənbəyidir. Lakin onun da canlılara təsirini araşdırsaq, görərik ki, günəş şüalarının müəyyən qismi Yerə çatır. Günəş şüalarından biri olan *ultrabənövşəyi şüalar** gözlə görünməsə də, yerdəki hadisələrə güclü təsir göstərir. Bu şüaların bir hissəsinin qarşısını atmosferdəki *ozon* qatı kəsir. Əgər bu qat olmasa, Günəşin bu cür şüaları Yerdə olan canlıları məhv edər. Deməli, canlılar Yerə gələn Günəş şüalarına uyğunlaşmışdır. Bu şüaların az miqdarı orqanizmə müsbət təsir göstərir. Həmin ultrabənövşəyi şüaların təsiri ilə insan bədənində D vitamini əmələ gəlir.

* Ultrabənövşəyi şüalar — Günəşin qısadalğalı şüaları

## *Təbiəti gəzək və tanıyaq*

Orqanizmdə D vitamininin çatışmazlığı uşaqlarda raxit xəstəliyinin əmələ gəlməsinə səbəb olur. Bu səbəbdən də bədənin yoluxucu xəstəliklərə qarşı müqaviməti azalır. Həkimlər belə halların baş verməməsi üçün körpələri təmiz havada gəzdirməyi tövsiyə edirlər. Lakin həddindən çox Günəş şüası da sağlamlığa ziyandır. Günəş şüaları altında çox qaldıqda *günvurma* baş verə bilər, dəridə yanıqlar yaranar.

*Siçan dəvə ilə müqayisədə susuzluğa daha uzun müddət davam gətirə bilir.*

Hal-hazırda atmosferdə ozon qatının bəzi yerlərdə dağılması baş vermişdir. Buradan keçən şüalar təbiətdəki canlılara mənfi təsir göstərir. Nəticədə insanlarda bəzi xəstəliklərin yaranması, bəzilərinin isə sürətlə inkişafı baş verir. Bunun üçün bəzi günlərdə, yəni ultrabənövşəyi şüaların Yerə çox nüfuz etdiyi vaxtlarda həkimlər insanlara daha çox evdə qalmağı məsləhət görürlər.

Zavodlardan buraxılan zəhərli qazlar, maşınların tüstüsü, sulara axıdılan kimyəvi maddələr bitki və heyvanlara, insan sağlamlığına mənfi təsir göstərir. Mühitin dəyişməsi, isti və quraqlıq, kəskin şaxtalar, vulkan püskürmələri, yanğınlar və s. hətta bir çox bitki və heyvanların nəslinin kəsilməsinə səbəb olmuşdur.



**1.** Düzgün olanları seçin:
   1) Bakteriyalar ən şiddətli istilərə dözür.
   2) Ozon qatı dağılsa, həyat davam edər.
   3) Ultrabənövşəyi şüalar dəridə D vitamini əmələ gətirir.
   4) Günəş şüaları altında çox qalanda günvurma baş verir.
   5) Ultrabənövşəyi şüaları insan görə bilir.
   6) Quruda yaşayan bitkilər $+100^0$ C qədər temperatura dözə bilir.
   7) Maşınların tüstüsü təbiəti korlayır.
   8) Buzlaşma bəzi heyvanların nəslinin kəsilməsinə səbəb olmuşdur.

**2.** Müasir dövrdə insan fəaliyyətinin mühiti dəyişdirməsinin canlılara təsirinə aid misallar yazın.

**3.** Ətraf mühitin insan orqanizminə təsirinə dair misallar gətirin.

**4.** Havası çox çirklənmiş bir şəhər var. Havanı təmizləmək, insanları bəladan xilas etmək üçün bu şəhərdə bir sıra tədbirlərin görülməsi nəzərdə tutulub. Sizcə, aşağıdakılardan hansı bioloji tədbir hesab oluna bilər?
- Zavodlarda təmizləyici qurğuların yenilənməsi;
- Kömürdən istifadəni azaltmaq;
- Fabrik və zavodlarda kimyəvi maddələrin havaya buraxılması;
- Ağac əkilməsi.

# 6 İnsan və təbiət

Yəqin ki, dünya səyahətinə çıxmağa etiraz etməzsiniz. Heç düşünmüsünüzmü ki, bu zaman hansı təhlükələrlə rastlaşa bilərsiniz?

Yalnız yanğını, zəlzələni, meşədə azmağı və s. təhlükə adlandırmaq olmaz. İqlim şəraitini dəyişməyin özü də orqanizm üçün ciddi təhlükə yarada bilər.

Çünki hər birimiz hansısa iqlim şəraitinə uyğunlaşmışıq. Yəni uyğunlaşdığımız iqlimdə havanın temperaturu, rütubət, ilin günəşli günləri bizə əks təsir göstərmir. Qəbul etdiyimiz qidalara belə orqanizmimiz öyrəşmiş olur. Əgər dünya səyahətinə çıxmağa qərar veriksə, gedəcəyimiz ölkə haqqında bir az araşdırma aparmağımız məsləhətdir. Bu araşdırma yalnız gedəcəyiniz ölkədə istirahət mərkəzləri, muzeylər, gəzməli-görməli yerlər barədə deyil, həm də *iqlim** şəraiti barədə olmalıdır.





Qəfil iqlim dəyişkənliyi orqanizm üçün ciddi təhlükəyə, stresə səbəb ola bilər. Səyahətə gedəcəyimiz ölkənin iqlimi ilə yaşadığımız yerin iqlimi nə qədər uyğun olarsa, orqanizm də həmin hava şəraitinə bir o qədər tez uyğunlaşar.

---

* İqlim — hava şəraitinin bir-birini əvəz edən bütün müxtəlifliklərinin cəmi

*Şəkillərə əsasən müxtəlif mühit amillərinin insan orqanizminə necə təsir göstərəcəyini yoldaşlarınızla müzakirə edin.*



Günəş şüaları orqanizm üçün nə qədər əhəmiyyətli olsa da, müxtəlif xəstəliklərə də yol açır. Bu xəstəliklərə ürək-damar və sinir sistemi xəstəliklərini misal göstərmək olar.

Payızda havalar yavaş-yavaş soyumağa başlayır. Orqanizm soyuqlara uyğunlaşır. Lakin təsəvvür edin ki, birdən-birə istidən çıxıb soyuğa düşmüsünüz. Bu zaman orqanizm mühitə çox çətin uyğunlaşar.



Dağlıq ərazilər öz iqliminə və həyat şəraitinə görə digər ərazilərdən fərqlidir. Dağa qalxdıqca havanın təzyiqi aşağı düşür. *Oksigen* azalır. Belə iqlim şəraiti insana başgicəllənmə, hava çatışmazlığı, yuxu gətirir. Bu məhz oksigen çatışmazlığı ilə bağlıdır. Ancaq bunun yerli əhaliyə heç bir təsiri yoxdur. Orqanizmin bu şəraitə uyğunlaşması müəyyən vaxt tələb edir.



*Yer kürəsi 24 saat qurşağına bölünüb. Saat fərqinin yaranmasının orqanizmə təsirini araşdırın.*

Unutmayın! Başqa bir ölkəyə gedəsi olsanız, diqqət edin: isti ölkələrdə su tədarükü görmədən yola çıxmayın. İsti havada orqanizm çox su itirir.

Gözlərinizi Günəşdən qorumaq üçün eynəklərdən istifadə edin.



1. Dəniz görəndə o saat insanın ürəyindən suya atılıb üzmək keçir. Lakin həkimlər bir az kölgədə oturub gözləməyi məsləhət görür. Sizcə, daha hansı qaydalara əməl olunmalıdır? Nə üçün?
2. Şəkildə verilmiş xalqların nümayəndələrində iqlimə uyğunlaşma əlamətlərini müəyyənləşdirin və səbəbini izah edin.





3. Kosmonavtların səmada hansı çətinliklərlə rastlaşdığı haqqında məlumat toplayın.

# 7 Təbiətin harayı

## *Təbiəti gəzək və tanıyaq*

*Dünyanın ən böyük gölü olan Xəzərə çirkab sularının, məişət tullantılarının və s. axıdılması onun çirklənməsinə səbəb olur.*

*Meşələrin kütləvi şəkildə qırılması bəzi bitki və heyvan növlərinin sayının azalmasına səbəb olmuşdur. Bu hadisələrin bir-biri ilə əlaqəsini necə izah edə bilərsiniz?*

Ətraf mühit canlıların sığınacağı, qida və oksigen mənbəyidir. Lakin son illərdə dünyada baş verən müharibələr, zəhərli qazlar, tüstü və küllə müşayiət olunan yanğınlar, temperatur və digər iqlim dəyişiklikləri və s. hallar ekoloji vəziyyətin pisləşməsinə səbəb olur.

**Təbiət haray çəkir: “Məni qurtarın”.**
**Haraya səbəb nədir?**

1. **Havanın çirklənməsi;**
2. **Suyun çirklənməsi;**
3. **Torpağın çirklənməsi.**

İnsan təbiətdə yaşayır və onun bir hissəsidir. Hal-hazırda təbiətdə insanın əli çatmayan bir yer qalmamışdır. İndi insan təbiəti nəinki qoruyub saxlamağı, hətta onu xilas etmək yollarını fikirləşir.

Havada *oksigenin azalması, karbon qazının və müxtəlif zərərli qazların artması* əksər canlılara pis təsir edir, onların məhvinə səbəb olur.

İlk canlılar suda yaranmışdır. *Susuz* həyat yoxdur. Həyat mənbəyi olan su yalnız su hövzələrində deyil, həmçinin havada, torpaqda, canlıların orqanizmində də vardır. İçməli su problemi bir çox ölkələrdə ən vacib məsələyə çevrilmişdir. Bəzi ölkələrdə içməyə yararsız olan suların istifadəsi milyonlarla insanın məhvinə səbəb olur.



*Torpaq* qida məhsullarının alınmasında əsas mənbədir. Təəssüf ki, şəhərlərin artması meşə və otlaqların azalmasına səbəb olur, nəticədə yararlı torpaqlar sıradan çıxır.

*Qruplara bölünüb aşağıdakı mövzularda araşdırma aparın:*
Xəzərin çirklənməsi → Canlılara təsiri
Torpağın çirklənməsi → Canlılara təsiri
Havanın çirklənməsi → Canlılara təsiri

Canlılar ətraf mühitin cansız amilləri: işıq, su, istilik olmadan yaşaya bilməzlər. İşıqsız yaşıl bitkilər heç yaşaya bilməz, susuz bütün canlılar məhv olar. Təsəvvür edin ki, istilik yoxdur, hər tərəf donub. Gözünüzün qarşısında hansı mənzərə canlanır?

*Son 300 ildə insan Yer kürəsindəki meşələrin 65 faizini məhv etmişdir. Belə davam etsə, 15-20 ildən sonra bütün dünyada olan meşələrin sahəsi iki dəfə azalacaqdır.*

Bitkilərə nəzər salaq: nərgiz, lalə, qızılgül və digər güllər bizi heyran edir. Səmaya baxırıq. Günəş, Ay və ulduzlar bizdə xoş əhvali-ruhiyyə yaradır. Torpağa diqqətlə baxsaq, orada nələr görmərik? Bir çox canlılar (yağış qurdu, bəzi cücülər) torpaqda olan müxtəlif çürüntü, bitki kökləri və s. ilə qidalanır.

Təbiətə zərər vuran amillərdən biri *səs-küydür*. Səs-küy insanlara təsir etdiyi kimi, digər canlılara da təsir edir. Məsələn, təyyarə yerə yaxın məsafədə uçan zaman kenqurular, dəniz pişikləri və s. heyvanların ürəkləri partlayır və ölürlər. Güllə səsinə yuvasındakı yumurtalarını qoyub qaçmış quşların yumurtasından bala çıxmır.

Bir sözlə, təbiəti xilas etmək lazımdır. Çünki təbiət bütöv bir orqanizmdir. Onun bütün orqanları qorunmalıdır.



## *Təbiəti gəzək və tanıyaq*



**1.** Aşağıdakı şəkillərə əsasən təbiətdə yaranan ekoloji problemləri müəyyənləşdirin.










**2.** “Xəzər dənizində ekoloji problemlər” mövzusunda esse yazın.
**3.** Ətraf mühitin qorunmasına dair plakat və simvol hazırlayın.
**4.** Ozon qatının dağılması nəyə səbəb ola bilər?
   a) Heç bir dəyişiklik baş verməz;
   b) Bitkilər zəif inkişaf edər;
   c) Havada karbon qazı artar;
   d) Yerdəki canlılar məhv olar.
**5.** “Yaşıllıqları qoruyaq” adlı kiçik qrup yaradın. Bu qrupun məktəbinizdə görə biləcək işlərini planlaşdırın.

# 8 Təbiətə borcumuz

*Biz öz əllərimizlə təbiətdə ikinci təbiət yaradırıq.*
***Siseron***

*Anası Rövşənə hər gün zibil atmağı tapşırmışdı. O isə tənbəllik edərək zibili qutuya deyil, yaxınlıqdakı binanın tininə atırdı. Qonşu Rövşəni çağırıb danladı. Rövşənin hərəkətini necə qiymətləndirmək olar?*

İnsan təbiəti öyrənir. Ondan öz məqsədi üçün istifadə edir. Lakin insan təbiətdən düzgün istifadə etmədikdə ona böyük zərbə vurur. Məsələn, meşələri qırmaqla onun bitki və heyvanlar aləmini məhv edir. Zavod və fabriklərdən müxtəlif kimyəvi proseslər nəticəsində ayrılan zəhərli maddələr təmizlənmədən suya və havaya buraxıldıqda canlı orqanizmlərə, eləcə də insan sağlamlığına ziyan vurur. Bu isə bütövlükdə bəşəriyyətə böyük zərbədir. Bu proseslər davam etsə, insan həm özünü, həm də bütövlükdə təbiəti məhv edə bilər. Ona görə də hər birimiz təbiətin mühafizəsi işinə qayğı göstərməli, onu daim qorumalıyıq.

Təbiətin mühafizəsi qlobal problemdir. Bütün dünya dövlətləri təbiətin mühafizəsinə dair müxtəlif qərarlar vermiş və qanunlar qəbul etmişdir. Bu qanunları həyata keçirmək üçün bəşəriyyət həmrəy olmalıdır. Hazırda bütün dövlətlər arasında təbiəti qorumaq üçün yeni və müxtəlif müqavilələr, sazişlər bağlanılır, layihələr həyata keçirilir.



*Şəkillərdəki hadisələri müzakirə edin, oxşar nümunələr deyin.*




İnsanın hüquqlarından biri sağlam ətraf mühitdə yaşamaq hüququdur. Təbiəti qorumaq isə yalnız dövlət orqanlarının deyil, hamımızın borcudur.

Hər birimiz bilməliyik ki, bugünkü həyatımız üçün ilk növbədə təbiətə borcluyuq. Təbiət isə bu borcun əvəzində ona qayğıkeş və humanist münasibət gözləyir.

Yer üzündəki 11 iqlim tipindən 9-u Azərbaycanda vardır. Doğma vətənimiz zəngin təbiət muzeyidir. O, il boyu zirvəsi qarla örtülü dağları, min bir dərdə dəva olan nadir bitkiləri, zəngin heyvanlar aləmi, təkrarolunmaz gözəlliyi olan gölləri, çayları ilə hər kəsi heyran edir.

Təbiət bizim sərvətimiz, məişətimiz, var-dövlətimiz, həyatımızın bir hissəsidir. Elm və texnikanın inkişafı, bu sahədə qazanılan uğurlar insanın xoş güzəranı üçündür. Lakin bu güzəranı qurarkən bəzən ekoloji tarazlığı da pozmuş oluruq. Bu kobud səhvlərin acı nəticələri ilə qarşılaşmamaq üçün dilimizdən, dinimizdən asılı olmayaraq təbiəti mənəvi cavabdehliklə qorumaq borcumuzdur. Hər birimiz təbiətə, onun sərvətlərinə, canlılar aləminə doğma münasibət bəsləməliyik. Biri ağacın budağını sındırarkən və yaxud da zibili yerə atarkən: “Mənim nəyimə lazımdır” — deyib keçməyin. Əslində, hamı bunun qarşısını almağa çalışmalıdır. Bu hamımızın təbiət qarşısında mənəvi borcudur. Bunu mən etməsəm, siz etməsəniz, yoldaşlarınız da etməsə, nə baş verər?!

Xoş gələcəyimizi qurmaq üçün bu gündən başlayaraq təbiəti qorumalıyıq. Ata-babalarımızdan miras qalan təbiəti gələcək nəsillərə yalnız qorumaqla yadigar qoya bilərik. Unutmayın ki, bu eyni zamanda ekoloji mədəniyyətdir.



1. Təbiət qarşısında olan vəzifələrinizin siyahısını tərtib edin.
2. Respublikamızda insanların çoxu şəhərlərdə yaşayır. Bu ətraf mühitə necə təsir göstərir?
3. Təbiəti qorumaq üçün nə edə bilərsiniz? Fikirləşin və esse yazın.
4. Çirkab suların düzgün axıdılmaması təbiətə hansı ziyanı vura bilər? Fikirləşin və izah edin.

# DİNİMİZ VƏ MƏNƏVİYYATIMIZ



# 1 İnsanın gözəlliyi onun əxlaq və davranışındadır

*İnsanların ən xeyirlisi insanlara ən çox faydası olandır.*
***Məhəmməd Peyğəmbər (s.ə.s)***

*Siz "o çox tərbiyəli qızdır və ya tərbiyəli oğlandır" kəlmələrini tez-tez eşidirsiniz. Sizcə, bu fikrin səslənməsinə səbəb nədir? Nə etməliyik ki, bu sözlər bizim üçün də səslənsin?*



Hər birimizin əxlaqı davranış və hərəkətlərimizlə ölçülür. Peyğəmbərimiz yaxşı əxlaq sahiblərini sevdiyini bildirmişdir. "Allah yanında ən çox sevilən qullar kimlərdir?" sualına "*Əxlaqı ən gözəl olanlardır*" cavabını vermişdir.



Hər bir insanın özünə görə ağlı, şüur səviyyəsi, vicdanı, iradəsi, arzu və istəkləri, dünyaya baxışı, əqidə və ideyaları vardır. Bütün bunlar birlikdə insanın *mənəviyyatını* təşkil edir. Hər bir insanın *əxlaqı* da onun mənəviyyatından asılıdır. İnsanın əxlaq və davranışı onun mənəvi sağlamlığının göstəricisidir.



Əxlaqı olan hər bir insan ədəb qaydalarını gözləyir, özü qədər başqalarını da düşünür, onların rahatlığını pozmamağa çalışır. Yaxşı tərbiyə görmüş, yüksək əxlaqi keyfiyyətlərə malik insanların fəaliyyəti faydalı olur. Belə insanlar cəmiyyətə və başqalarına fayda verir, eyni zamanda özləri də faydalanırlar.

*Üzeyir, Raul, Qabil, Əli və Nihad dostluq edirlər. Onlar hansı qaydalara əməl etməlidirlər ki, dostluqları uzun müddət davam etsin? Bu qaydaları müəyyənləşdirin.*



Həyatda çox vaxt gözlədiyimiz münasibətlə rastlaşmırıq, bəzi insanların davranışlarında kobudluq nəzərə çarpır. Biz bunu ailədə, məktəbdə, ictimai yerlərdə tez-tez müşahidə edirik. Belə hallar cəmiyyətdə müsbət qarşılanmır.

İnsanların əxlaq və davranışlarının formalaşmasında mühitin və ailənin, milli dəyərlərin, televiziya verilişlərinin, kino və teatrın rolu böyükdür. “Şərikli çörək”, “Qaraca qız”, “Ögey ana” filmlərini, yəqin ki, görmüsünüz. Bu filmlərdə humanizm, insansevərlik ön plana çəkilib. Bu filmlər hər birimizdə mehribanlıq, kollektivçilik, dürüstlük, böyüklərə hörmət, insanlara sevgi kimi gözəl xüsusiyyətlər formalaşdırır.

Cəmiyyətdə neçə-neçə namuslu insan yalanın, iftiranın, böhtanın qurbanı olur. Qeybətcil adamlar isə bunu çəkinmədən, fərəhlə danışırlar. Belə hallar get-gedə cəmiyyətdə kök salaraq insanların həyatına təsir edir, onların əxlaq və mənəviyyatını korlayır. Siz də çalışın ki, yalandan, iftiradan, qeybətdən, saxtakarlıqdan uzaq olasınız. Düzgün və dürüst insan olmağa çalışın, dilinizə yalan söz gətirməyin.



1. Əxlaqlı hesab etdiyiniz insanın hansı keyfiyyətlərə malik olduğunu təsvir edin. Bunu rollarda ifadə edin.
2. “Şərikli çörək” filmini izləyin, bu filmin tərbiyəvi əhəmiyyəti haqqında kiçik esse yazın.
3. Verilmiş mətnə əsasən sualları cavablandırın:
   *Çingiz babasını çox sevir. Babası çox mədəni, savadlı, nurani insandır. Çoxlu mütaliə edir. O, içəri girəndə Çingiz hər zaman ayağa qalxır, ona yer göstərir. Babasının sözünü kəsmir, onu sonadək səbirlə dinləyir. Söhbətlərinə böyük maraqla qulaq asır. Babası Çingizi tez-tez özü ilə teatra, muzeylərə aparır. Baba öz dostları ilə Dənizkənarı Milli Parka çay içməyə gedəndə də Çingiz babasından ayrılmır.*

   Çingizin davranışlarına münasibət bildirin.
   Bu cür davranışı formalaşdıran amillər hansılardır?
   Mətni davam etdirsəydiniz, Çingizin davranışlarına başqa nələri əlavə edərdiniz?

# 2 Dini dözümlülük











*Şəkillərin hansı dinlərə aid olduğunu müəyyənləşdirin.*
*Siz bu dinlər haqqında nə bilirsiniz?*

*Din* dünya gerçəkliyini dərk etməyə aparan yoldur. Dinin yolu böyük, cığırları çoxdur. Dünya əhalisi müxtəlif dinlərə etiqad edir. Siz bunlardan bəzilərinin adlarını artıq bilirsiniz. Bu dinlərin bəzilərinin öz peyğəmbəri, öz ənənələri, müqəddəs kitabları var.

Dinlər yalnız bir ölkə, bir xalqın yaşadığı ərazidə deyil, müxtəlif ölkələrdə yayılmışdır.



*Məscid*



*Kilsə*

*Din Allahın buyurduqlarını həyata keçirmək üçün bir vasitədir.*
***İ.Kant***

Bilirsiniz ki, Azərbaycan demokratik ölkədir. Ölkəmizdə islam dini ilə yanaşı, müxtəlif dinlərə etiqad edən insanlar da yaşayırlar.



*Ölkəmizdə müsəlmanların çoxluq təşkil etməsinə baxmayaraq, bütün insanlara və onların dinlərinə hörmətlə yanaşılır. Bu fikri necə əsaslandıra bilərsiniz?*

Qədim İpək yolunun üzərində yerləşən və Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycan torpağı tarix boyu müxtəlif dinlərin qovuşduğu bir məkan olmuşdur. Belə bir şəraitin mövcud olmasında Azərbaycanın tarixi inkişafı, coğrafi mövqeyi, əhalisinin tərkibi və s. səbəblər böyük rol oynamışdır.

Azərbaycanda tarixən *şamanlıq, zərdüştlük* kimi çoxallahlı dinlərlə yanaşı, islam, xristianlıq və yəhudilik kimi təkallahlı dinlər də olmuşdur. Azərbaycanda dini dözümlülüyün tərbiyə edilməsində islamın böyük rolu olmuşdur. Ümummilli liderimiz Heydər Əliyev bu barədə demişdir: "Dünyada bir çox dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmiş, düşmənçilik etməmiş, ədavət aparmamış və heç bir başqa xalqı dinimizə itaət etməyə məcbur etməmişik. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, dinlərin kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar".



1. Azərbaycan nə üçün dinlərin qovuşduğu məkan adlanır?
2. Ölkəmizdə olan müxtəlif dinlərə qarşı münasibətə və onlara dövlət qayğısı haqqında məlumat toplayın.
3. İbrahimin dostları David yəhudi, Aleksey rusdur. Onlar İbrahimgilə qonaq gəlmişdilər. İbrahimin anası onları qucaqlayıb öpdü və "siz İbrahimin qardaşlarısınız" — deyə müraciət etdi. Ananın sözlərinə münasibət bildirin.

# 3 Səmavi və qeyri-səmavi dinlər



*Şəkildə gördüyünüz islam dininin müqəddəs kitabı olan Qurani-Kərimdir. Siz daha hansı müqəddəs dini kitabları və onların məxsus olduğu dinləri tanıyırsınız?*

*Din* Allah tərəfindən insanları dünya və axirət səadətinə qovuşduran ilahi inanc sistemidir. Din dedikdə mənbəyi yaradana dayanan inanc sistemi nəzərdə tutulur. Dinləri *səmavi* və *qeyri-səmavi* olmaqla iki qrupa ayırırlar. Səmavi dinlər, adından bəlli olduğu kimi, Allah tərəfindən mələklər vasitəsilə peyğəmbərlərə göndərilən *vəhy** mənbəyidir. Bunlara *haqq dinlər* də deyilir. Bir sözlə, x*ristianlıq*, *yəhudilik* və *islam* dini haqq dinləridir.



| Dinlər | Peyğəmbəri | Müqəddəs kitabı | İbadət yeri |
|---|---|---|---|
| İslam | | | |
| Xristianlıq | | | |

*Dinləri müqayisə edin.*

İslam dininə görə ilk insan Hz. Adəm eyni zamanda ilk peyğəmbərdir. Hz. Adəmdən Hz. İsaya qədər bütün peyğəmbərlər insanlara Allahın birliyini və ona necə ibadət ediləcəyini təbliğ etmişlər. Mənbələrə görə, səmavi dinlərdən yəhudilik Hz. Musa, xristianlıq isə Hz. İsa tərəfindən insanlara çatdırılmışdır.

*İbadətlərin ən fəzilətlisi dini anlamaqdır.*
***Məhəmməd Peyğəmbər (s.ə.s)***

Son olaraq Allah-taala bütün insanları yenidən xəbərdar etmək üçün onlara Məhəmməd peyğəmbər vasitəsilə islam dinini göndərmişdir. Bu, Qurani-Kərimdə "əl-Maidə" surəsinin üçüncü ayəsində belə ifadə edilmişdir:

* Vəhy — fikrin, hökmün Allah tərəfindən Peyğəmbərə verilməsi

*Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana (Tövrata və İncilə) inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız Ona təslim olanlarıq.*
***(Qurani-Kərim)***
***"əl-Ənkəbut" surəsi***

*"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim".*

Hazırda dünya əhalisinin təqribən 1,2 milyardı islam dininə etiqad edir. İslam dini səmavi dinlərin sonuncusu hesab olunur və Allah tərəfindən göndərilən peyğəmbərləri və kitabları təsdiq edir. İslam *sülh, barışıq, bərabərlik* və *yardımlaşma* dinidir.

Qeyri-səmavi dinlər isə Allah tərəfindən göndərilməyib, insanlar arasında təşəkkül tapan dinlərdir. Bunlara misal olaraq, *buddizm, zərdüştlük* və *sintoizmi* göstərmək olar. Müasir dövrdə Yaponiya, Çin, Hindistan, Tailand buddizmin yayıldığı ölkələr sayılır. Zərdüştlük bir vaxtlar Azərbaycan, İran, Orta Asiya və Hindistanda geniş yayılmış bir din olmuşdur. Sintoizm köklü yapon dinidir və bu günədək beləcə qalmaqdadır.



**1.** Dinləri qruplaşdırın.
*buddizm, yəhudilik, zərdüştlük, sintoizm, islam, xristianlıq*

| Səmavi dinlər | Qeyri-səmavi dinlər |
|---|---|
| | |

**2.** İslam dinində ən çox bəyəndiyiniz xüsusiyyətləri seçin və əsaslandırın.

**3.** Məhəmməd Peyğəmbərin *(s.ə.s.)* elmlə əlaqəsi olan kəlamlarını toplayın və dəftərinizdə yazın.

**4.** Səmavi və qeyri-səmavi dinlərə aid məlumat toplayın.

# 4 İnanc sistemində oxşarlıq və fərqlər

*Müxtəlif dinlər arasında oxşar və fərqli cəhətlər mövcuddur. Səmavi dinlərin də oxşar və fərqli cəhətləri vardır. Bunu şəkillərə əsasən demək mümkündürmü?*







Uca Yaradanın tək olmasını qəbul etmək, yalnız Allahdan kömək diləmək, qəza və qədərə inanmaq bütün səmavi dinlərin oxşar cəhətləridir.

Allah-taala insanları yer üzündə nizamla yaşamağa, bir-biri ilə gözəl rəftar etməyə, onları Yaradanı tanımağa, xeyirxah olmağa, yaxşı işlər görməyə, yalan danışmamağa, valideynlərə və özündən böyüklərə hörmət etməyə çağırır.

*İki xislət heç vaxt müsəlmanın qəlbinə daxil olmaz: biri xəsislik, digəri isə bədxasiyyətlik. Xəsisliklə iman heç vaxt bir qəlbə yerləşməz.*
***Məhəmməd Peyğəmbər (s.ə.s)***

İslam dini yəhudilik və xristianlıq dinlərindən sonra yaranmışdır və **sonuncu** dindir. Allahın təkliyini qəbul etmək (*kəlmeyi-şəhadət*), gündə *5 vaxt (dəfə) namaz qılmaq*, Ramazan ayında *oruc tutmaq*, *zəkat vermək* və *Həcc ziyarətinə getmək* islam dininin vacib şərtləridir.

Yəhudilikdə ibadət kimi *səhər* və *axşam dua* oxunur. Şənbə günü heç bir iş görülmür, oruc pəhriz şəklindədir.



*Müsəlmanlar Ramazan ayında oruc tuturlar. Yoldaşlarınızla oruc tutanların hansı qaydalara əməl etməli olduqlarını müzakirə edin.*

Xristianlığa görə, insan dünyaya günahkar olaraq gəlir, *vaftiz* (xaç) suyuna salınır. Kilsədə ömründə bir dəfə günahlardan təmizlənmək üçün insanlar keşişə müraciət edərək keşiş tərəfindən bağışlanılır. Xristianlıqda kilsədə *həftədə bir dəfə* – bazar günü dualar oxunur.

*Ey iman gətirənlər, (sözləriniz, iş və hərəkətlərinizdə) Allahdan və Peyğəmbərdən önə keçməyin. Allahdan qorxun...*
***(Qurani-Kərim)***
***"əl-Hucurat"***
***surəsi***



1. Hansı sırada qeyri-səmavi dinlər göstərilmişdir? Bu dinlərin fərqli xüsusiyyətləri haqqında məlumat toplayın.
   - ☐ islam, xristianlıq, yəhudilik
   - ☐ şamanlıq, yəhudilik, islam
   - ☐ buddizm, xristianlıq, zərdüştlük
   - ☐ buddizm, sintoizm, zərdüştlük

2. Aşağıdakılardan hansılar doğrudur?
   1) Dinlər yalnız bir ölkədə yayılmışdır.
   2) Yəhudiliyə görə, insan dünyaya günahkar olaraq gəlir, *vaftiz* (xaç) suyuna salınır.
   3) Azərbaycanda yalnız müsəlmanlar yaşayır.
   4) Azərbaycanda tarixən şamanlıq və zərdüştlük kimi çoxallahlı dinlər yayılmışdı.
   5) Müsəlmanlar və yəhudilər oruc tuturlar.

   a) 1, 2, 4   b) 2, 3, 4   c) 2, 4, 5   d) 4, 5

3. Aşağıdakılardan hansı islam dininə aiddir?
   1. Gündə 5 dəfə namaz qılmaq
   2. Kilsədə ibadət etmək
   3. Həcc ziyarətinə getmək
   4. Ramazan ayında oruc tutmaq
   5. Günahlardan təmizlənmək üçün keşişə müraciət etmək.

   a) 2, 3, 5   b) 1, 3, 4   c) 1, 3, 5   d) 1, 2, 3   e) 3, 4, 5

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

*Azərbaycan dilində*


1. Ayna Uşaq Ensiklopediyası, 2002.
2. Azərbaycan Respublikasının Konstitusiyası.
3. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə, Bakı, 2004.
4. Ekoloji siyasət. Bakı, 2008.
5. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001.
6. Qurani-Kərim (Tərcüməçilər: akad. Ziya Bünyadov və prof. Vasim Məmmədəliyev), 2011.
7. Maqsud Qasımov. "Sağlam həyat tərzi uğrunda". Bakı, 2005.
8. M.Mərdanov, F.Şahbazlı. "Azərbaycanın təhsil siyasəti (1998–2005)". I, II kitab. "Təhsil", Bakı, 2005.
9. N.Əkbərov. "Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları". "Bərəkət" nəşriyyatı, 2010.
10. N.Əkbərov. "Məktəbdə əxlaq və davranış qaydaları". "Bərəkət" nəşriyyatı, 2010.
11. "Özünə və başqalarına kömək etməyi bacar" (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi), Bakı, 2004.
12. Ramil Əliyev. İqtisadi təhlilin nəzəriyyəsi. Bakı, 2002.
13. Rəfiqə Əliyeva, Qara Mustafayev, Sevinc Hacıyeva. "Ümumi ekologiya". Bakı, 2004.
14. S.C.Əliyev, H.M.Hacıyeva, N.C.Mikayılzadə. "Tibbi biliklərin əsasları". Bakı, 2004.
15. S.Tağıyeva və b. "Həyati bacarıqlara əsaslanan təhsil". Müəllimlər üçün tədris vəsaiti. (V– IX siniflər). Bakı, 2006.
16. Ş.Ə.Topçiyeva, R.T.Qəndilov, S.Ş.Tağıyeva, Ş.Ə.Qocayev, G.N.Hacıyeva, N.Ə.Məmmədova, A.T.Hacıyeva və b. "Həyati bacarıqlara əsaslanan təhsil", Çaşıoğlu, 2007.
17. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2009.

*Türk dilində*

18. Delius, Harald. “Etik, Günümüz Felsefe Disiplinleri”, D.Özlem, İstanbul.

*Rus dilində*

19. Коробкин В.И., Передельский Л.В. «Экология». – Ростов н/Д: Феникс 2000.
20. Новиков Ю.В. «Природа и человек». – М.: Просвещение, 1991.
21. Щепанская Т.Б. «Культура дороги в русской мифоритуальной традиции XIX–XX вв.». М.: Индрик, 2003.

*İnternet resursları*

22. http://www.clb.az/files/mv/Menevi_irs.pdf
23. http://multiculturalism.preslib.az/az_a3.html
24. http://www.ebooks.az/view/rOeXAGZE.pdf
25. http://www.refugees-idps-committee.gov.az/az/pages/17.html
26. http://www.refugees-idps-committee.gov.az/az/news/606.html
27. http://miqrasiya.nakhchivan.az/en/images/stories/konvensiyalar/7.pdf
28. http://azhumanrights.az/fondumuz/
29. http://scfwca.gov.az/
30. http://www.fhn.gov.az/?aze/menu/20
31. http://www.fhn.gov.az/index.php?aze/pages/150
32. http://www.dyp.gov.az/?/az/content/188/
33. http://www.fhn.gov.az/?aze/menu/26/348

# Buraxılış məlumatı


**HƏYAT BİLGİSİ 5**

*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*

**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Məmmədova Nüşabə Əsəd qızı** |
| | **Mahmudova Könül Faiq qızı** |
| | **Bağmanlı Aynur Zahid qızı** |
| Buraxılışa məsul | **Sevil İsmayılova** |
| Baş redaktor | **Ülkər Məmmədova** |
| Dizayner | **Elşən Qurbanov** |
| Səhifələyici | **Kubra İbrahimova** |
| Korrektor | **Nübar Qarayeva** |
| Redaktor | **Tamilla Rüstəmova** |
| Texniki redaktor | **Fəridə Səmədova** |
| Texniki direktor | **Xəqani Fərzalıyev** |
| Nəşriyyat direktoru | **Eldar Əliyev** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*24.05.2016-cı il tarixli 354 nömrəli əmri ilə*
*təsdiq edilmişdir.*



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2017**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 5. Formatı $70x100^{1}/_{16}$.
Səhifə sayı 80. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 9431. Pulsuz. Bakı – 2017

**"Şərq-Qərb" ASC**
**AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17**

PULSUZ

## Əziz məktəbli !

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən
bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri
qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq,
onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli
saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli
yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!

